HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 may 2016-cı il

№009 (23)

yeni_yol@mail.ru

İCTİMAİ QƏZET

“იენი იოლი” საზოგადოებრივი გაზეთი

qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TÜRKİYƏ YENƏ DƏ GÜRCÜSTANIN TİCARƏT TƏRƏFDAŞLARI ARASINDA LİDERDİR



Türkiyə yenə də Gürcüstanın ticarət tərəfdaşları arasında lider olaraq qalır. Gürcüstan-Türkiyə ticarət dövriyyəsi Gürcüstanın xarici ticarət dövriyyəsinin 15,9%-ini təşkil edir. Məlumatı “Sakstat” Gürcüstan Milli statistika xidmətindən veriblər.

Buna baxmayaraq, 2016-cı ilin yanvar-mart aylarında ticarətin həcmi 2015-ci ilin analoji dövrü ilə müqayisədə təqribən 5,5% azalaraq, 342 milyon dollar təşkil edib.

Gürcüstandan Türkiyəyə ixracın həcmi 2015-ci ilin yanvar-mart ayları ilə müqayisədə 23% artaraq, təqribən 50 milyon dollar olub. Bu, Gürcüstanın ümumi ixracının 11,3%-idir.

Eyni zamanda Türkiyədən Gürcüstana idxalın həcmi 2016-cı ilin yanvar-mart aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə 9% azalıb və təqribən 292 milyon dollar təşkil edib. Bu isə Gürcüstanın ümumi idxalının 17,1%-i deməkdir.

## GÜRCÜSTAN AZƏRBAYCANA YENİ SÜRƏT QATARLARI SATMAQ BARƏDƏ DÜŞÜNÜR



“Gürcüstan vaqonqayırma zavodu yeni yüksək keyfiyyətli yük və sərnişin vaqonları, elektrik qatarları istehsal edir. Gürcüstan onları sərfəli qiymətlərlə Azərbaycana satmaq niyyətindədir. Bununla bağlı yeni təkliflər paketi hazırlanıb və yaxın vaxtlarda Azərbaycan tərəfə təqdim olunacaq”. Bu barədə Gürcüstan vaqonqayırma zavodunun direktoru Georgi Araşidze bildirib.

O, qeyd edib ki, zavod uzun müddətdir “Azərbaycan dəmir yolları” QSC ilə əməkdaşlıq edir.

“Biz Azərbaycana sərnişin və yük qatarları satırıq. Zavod yeni yüksək keyfiyyətli yük və sərnişin vaqonları, elektrik qatarlarının istehsalına başlayıb. Bunun üçün müvafiq lisenziya alınıb. Çinlə birgə istehsal olunan sürət qatarları Tbilisi-Batumi marşrutu ilə işləyir”.

Onun sözlərinə görə, zavodda postsovet və Avropa ölkələrinin dəmir yolları üçün vaqonlar istehsal olunacaq. O, bildirib: “Bizim qiymətlərimiz sərfəlidir. Buna görə də düşünürük ki, ADY bizim sürət qatarlarımızla, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin başa çatmasından sonra yük vaqonlarımızla maraqlanacaq. Növbəti aylarda biz yeni layihə və müvafiq sənədlərlə Bakıya səfər edəcəyik”.

MAY – ZİDDİYYƏTLİ BAYRAMLAR AYI 2

MƏNƏVİ YOXSULLUĞA APARAN YOLLARA ÖTƏRİ BAXIŞ 3

BULFÜZUL “BURUN”U 4

ALLAH ÖZÜNƏ DUA ETMƏYİMİZİ İSTƏYİR 5

KİMLƏR GƏLDİ, KİMLƏR GETDİ... 6

QƏDİM TİFLİSİN SAZ VƏ SÖZ USTALARI 7

BİRİNCİLƏRİN ƏLİFBA BAYRAMINDAN QEYDLƏR 8

## PREZİDENT GÜRCÜSTANIN AVROPA BİRLİYİNİN ÜZVÜ OLACAĞINA ƏMİNDİR



Gürcüstan prezidenti Georgi Marqvelaşvili ölkənin siyasi hakimiyyətinin və cəmiyyətin “möhkəm şəkildə Avropa ailəsinə inteqrasiyaya doğru hərəkət etdiyini” və Gürcüstanın Avropa Birliyinin üzvü olacağına əminliyini ifadə edib.

“Biz azadlıq ideallarına əsaslanan, Avropa dəyərlərinə uyğun gələn cəmiyyət qurmalıyıq. Bizim cəmiyyətimiz və siyasi rəhbərliyimiz aydın və möhkəm addımlarla Avropa ailəsinə doğru hərəkət edir. Bu barədə bizim razılaşmalarımız, siyasi proseslər söhbət açır və bunun təsdiqi Avropa standartlarına uyğun şəkildə payızda keçiriləcək seçkilər olacaq”, –Gürcüstanda Avropa Günləri şərəfinə təşkil olunmuş qala-konsertdə çıxışı zamanı Marqvelaşvili bəyan edib.

Prezident gələcəkdə Avropaya inteqrasiya yolunda qələbələr gözlənildiyini bildirib. “Gürcüstan Avropa Birliyinin üzvü olacaq, mən buna əminəm”, – prezident əlavə edib.

## GEORGİ KVİRİKAŞVİLİ: GÜRCÜSTANIN TƏHLÜKƏSİZLİYİ QƏRB TƏRƏFDAŞLARI İLƏ ƏMƏKDAŞLIQDAN KEÇİR



Qoy hamı başa düşsün ki, Gürcüstanın təhlükəsizliyi Qərb tərəfdaşları ilə əməkdaşlıqdan keçir. Deputat Tamaz Meçiaurinin bəyanatı ilə bağlı sulı cavablandıran Gürcüstanın baş naziri Georgi Kvirikaşvili belə cavab verib.

“Ölkəni idarə edən siyasi komanda daimi bir orqanizm deyil, o, yenilənir və biz də bu prosesdə iştirak edirik. Meydana çıxan ajiotaj tamamilə yersizdir və yalnız özünütəsdiqə xidmət edir. Ona görə də mən bu sual ətrafında tamamilə ağılsız ajiotaj yaradan adamlara səslənirəm ki, ölkənin qəbul etdiyi qərarlara, ölkənin beynəlxalq kursuna diqqət yetirsinlər, bu məsələnin heç bir yenidən gözdən keçirilməsi nəzərdə tutulmur. Qoy hamı başa düşsün ki, Gürcüstanın təhlükəsizliyi Qərb tərəfdaşları ilə əməkdaşlıqdan keçir”, – baş nazir bəyan edib.

## GÜRCÜSTANDA NOBLE PARTNER-2016 BİRGƏ TƏLİMLƏRİ KEÇİRİLİR



“Layiqli tərəfdaş” (Noble partner-2016) irimiqyaslı Gürcüstan-Amerika-Böyük Britaniya birgə təlimlərində iştirak etmək üçün ABŞ və Böyük Britaniya hərbi qulluqçuları Gürcüstana gəliblər. Məlumatı Gürcüstan müdafiə nazirliyi yayıb.

650 ABŞ və 150 Britaniaya hərbiçisi ABŞ hərbi hava qüvvələrinə məxsus dörd və Britaniyaya məxsus bir təyyarə ilə Tbilisiyə çatdırılıb.

Onları hərbi təlimlərin rəhbərləri – polkovnik Arçil Omiadze və polkovnik Cef Dikenson, habelə Böyük Britaniyanın hərbi attaşesi vitse-polkovnik Nik Vilkes qarşılayıb.

Sayca ikinci olan “Layiqli tərəfdaş” (Noble partner-2016) təlimi mayın 11-dən 26-dək Vazianidə keçiriləcək.

Bu təlimlərdə iştirak üçün Gürcüstana ABŞ-ın M1A2 tipli Abrams tankları və Bradley piyadaların döyüş maşınları gətirilib. Amerikanın C-130 tipli təyyarələri də təlimlərdə iştirak edir.

Təlimlərə 500 gürcü hərbiçisi qatılıb.

## MAY – ZİDDİYYƏTLİ BAYRAMLAR AYI

**Bu may ayında da o qədər bayramlar var ki, adam heç bilmir hansı birinin ətəyindən yapışsın, pis-yaxşı münasibət bildirsin. Ölkəmizdə may ayında rəsmi olaraq dörd bayram qeyd olunur və bu bayram günlərində işləyənlər sevinclərindən papaqlarını göyə atırlar ki, can bala, iş günü deyil. Bu il işləyənlərin sevinci bir qədər də uzun çəkdi. Nədən ki, pasxanın hesabına da istirahət hüququ əldə etdik. Bu rəsmi hissə, yəni dövlətimizin bizə tanıdığı bayram günləridir. Qeyri-rəsmi olaraq da bayram payımız yox deyil.**

Elə təkcə mayın 3-də üst-üstə üç bayram yaşadıq. Elə götürək 3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Gününü. Bu bayram ildən ilə dini-siyasi zəmində baş verən münaqişələr, müharibələr fonunda həlak olan, zorakılıqla üzləşən, həbsxanalara salınan söz adamlarının bayramıdır. Bir onu demək bəs edər ki, 2016-cı ilin əvvəlindən dünyanın 18 ölkəsində 40 jurnalist öldürülüb. Bu fakt ilin dörd ayı ərzində baş vermiş jurnalist ölümlərini özündə ehtiva edir. Hələ heç il yarı da deyil, qarşıda ilin böyük hissəsi durur və istəsək də, istəməsək də ilin bu qalan aylarında jurnalistlərin peşə fəaliyyətlərini həyata keçirərkən həlak olacaqlarını bəri başdan proqnozlaşdırmaq mümkündür, yəni arxada buraxdığımız aylarda olduğu kimi, yaşanacaq aylarda da jurnalistlər ölümdən sığorta olunmayacaq, ifadə kəskin səslənsə də, 2016-cı il də jurnalist ölümləri ilə zəngin olacaq.

Mayın 3-də bilənlər müqəddəs Merac gecəsini qeyd etdilər. Bu İslam peyğəmbərinin Məkkədəki əl-Haram məscidindən Qüdsdəki əl-Aksa məscidinə etdiyi ilahi bir yolçuluğun bayramıdır, bu, peyğəmbərin Allahın dərgahına yüksəlişi və orada ona ilahi möcüzə və əlamətlərin əyan olduğu bir gecənin bayram edildiyi gündür. Sözarası qeyd edək ki, bu gün münasibətilə ölkəmizin dini işlər üzrə Dövlət agentliyi və qurumun sədri Zaza Vaşakmadze bütün müsəlmanları təbrik edib. Bunlar, buraya qədər dediklərimiz qəlbimizin qürurla dolmasına nədən olur. Ancaq nə yazıq ki, İslam dininin gözəlliklərini bir kənara buraxıb, əslində bu dinə heç bir aidiyyəti olmayan ideyaları və fikirləri öz yaşamının mənası edənlər, İslam adından danışaraq etdikləri əməllərlə bu gözəlim dinə kölgə salmaq, onu gözdən salmaq kimi iyrənc niyyətlərinindən daşınmaq istəmirlər. Və anlamayanlar da İslama yağı kəsilmiş toplumların etdiklərini bizim ayağımıza yazırlar.

3 May Türkçülük Günü. 1944-cü ildə Tophana hərbi həbsxanasında Nihal Atsız, Zeki Velidi Togan, Nejdet Sançar ve Reha Oğuz Türkkan başda olmaqla 10 məhkum tərəfindən ilk dəfə qeyd olunan bu gün, sonralar türk xalqları tərəfindən türkçülüyün bəlgəsi olaraq qəbul edilmiş, qutsal bir gün kimi qeyd olunmuşdur. İndi bu sətirləri oxuyanların çoxu belə bir günün mövcud olmasından qürur duyacaq, mən buna əminəm. Amma demədən də keçmək olmur ki, bir çoxunun belə bir qutsal bayrama malik olmamızdan yerli-dibli xəbəri yoxdur. Nədən ki, bu qəbildən olanlarımız heç türklüyümüzü belə qəbul etmək istəmirlər. Sovetin təbliğat maşını bələlərinin qafalarını xarab edib, bu cür düşünənlərdə türklükdən əsər-əlamət belə qalmayıb.

May ayında toy etmirik. Niyə? İnandırım ki, heç niyəsini özümüz də bilmirik. Biri eləcə olmaz deyir, niyəsini demir. Bir başqası deyir may ayı boş aydır, may ayında qurulan ailə bu üzdən baş tutmaz. Başqa birisi isə bu və buna bənzər cavabları ilə mövzunun çözüldüyünü düşünür. "Yeni Yol" olaraq mövzuya münasibətimizi bildirmişdik və bunun məkrli qonşularımızın siyasətindən qaynaqlandığını demişdik. Kimdir bizə qulaq asan, kimdir bizi dinləyən? Hərə öz bildiyini tutmağında və bildiyini babasına vermməyindədir. Ağızımızda deyirik may ayı bayramlar ayıdır, təqvimdə heç bir ay bu konuda mayla bəhsə girə bilməz, əməldə isə buna etina belə göstərmirik. Mayın 1-inin bayram olduğunu bilirik, mahiyyətinə varmadan nişanlı qızlara bayram xonçası, xınalı quzu aparırıq. Paradoks yaranır. Bir tərəfdən deyirik may ayında toy etmək, xeyir iş tutmaq olmaz, bir yandan da xonça tutub nişanlı qızlara göndərib əcaib düşüncə sərgiləyirik. İndi bir Allah bəndəsi qalxıb mənə izah edə bilərmi ki, Zəhmətkeşlərin Beynəlxalq Həmrəylik Günü ilə, bizim nişanlı qızlara göndərdiyimiz xonçaların, xınalı quzuların nə ilgisi, nə bağlılığı? İnandırım ki, bu məqamda adam söz də tapmır deməyə. Yenə rəhmətlik Nəriman Nərimanov özünün "Nadanlıq"ı ilə hoyumuza çatır.

1 Mayı bayram edirik. Niyə, nə üçün, nə bayramıdır, mahiyyəti nədir? Sizin yerinizə and içə bilərəm ki, bu sualların cavabını bir çoxu bilməyəcək, elə gözünü döyə-döyə "nə bilim bayramdı da" – deyib dodağının altında mızıldanacaq. Təkrar da olsa söyləyək ki, yenə də bildiyini tutacaq, borca-xərcə düşüb süfrə açacaq və guya öz ağlı ilə övladını sevindirəcək. Əslində isə ifrat israfçılığa yol verib, sonra da başlayacaq ah-uf etməyə, ay bu borc zəhrimarın altından necə çıxacam sualına cavab axtarmağa. Təbii ki, bu borc zəhrimar da qapı tanıdımı, daha əl çəkən deyil. Ona görə də biz ayağımızı yorğanımıza münasib uzatmağı öyrənməliyik ki, çöldə qalıb soyuqlamasın və bu yel-duz zəhrimarın əlindən hara gedək deyib haray-həşir salmayaq.

**Vay o gündən ki, dəliyə gündə bayramdır prinsipi ilə yaşayıb, elə düşünəsən ki, ayın-ilin hər günü bayramdır və bu bayramın ətaləti ilə işdən-gücdən əlin soyuya, sonra da altından çıxa bilməyəcəyin yükün ağırlığından qalasan çabalaya-çabalaya.**

**Afiq MUXTAROĞLU**

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ BİRGƏ TƏLİMLƏR KEÇİRƏCƏK

Azərbaycan müdafiə nazirliyinin yaydığı məlumata görə, üç ölkənin müdafiə nazirlərinin görüşünün nəticələrinə həsr olunmuş mətbuat konfransında Azərbaycanın müdafiə naziri Zakir Həsənov Azərbaycan, Gürcüstan və Türkiyənin birgə təlimlər keçirəcəyini bəyan edib..

Azərbaycan müdafiə naziri tərəflərin qarşılıqlı anlaşma haqqında Memorandum imzalamağı planlaşdırdıqlarını vurğulayıb.

Zakir Həsənov bildirib: "Razılaşma mərhələsində olan qarşılıqlı anlaşma haqqında Memorandum bizim əməkdaşlığımızın hüquqi əsasını təşkil edəcək, bizim üçtərəfli fəaliyyətimizin yeni səviyyəyə keçməsi üçün şərait yaradacaq".

## QARDABANİ RAYON RƏHBƏRLİYİ MÜHARİBƏ VETERANLARI İLƏ GÖRÜŞÜB



Böyük vətən müharibəsinin başa çatmasının və faşizm üzərində qələbənin 71-ci ildönümü ilə bağlı Qardabanidə bir sıra tədbirlər keçirilib. Bu məlumatı Qardabani bələdiyyəsinin rəsmi səhifəsi yayıb.

Qələbə gününə həsr edilmiş tədbirə müharibə iştirakçısı olmuş Qardabani sakinləri dəvət ediliblər. Qardabani bələdiyyəsinin sədri Qoça Camarauli və Sakrebulo rəhbəri Vaja Qenqaşvili müharibədə həlak olanların xatirəsinə ucaldılan abidənin önünə əklil qoyub. Qələbə günü münasibəti ilə konsert proqramı keçirilib.

Qardabanidə hal-hazırda 21 müharibə veteranı yaşayır. Qələbə günü münasibəti ilə Qardabani bələdiyyəsi büdcəsindən hər bir veterana 250 lari pul mükafatı verilib. Dövlət tərəfindən isə onların şəxsi hesablarına birdəfəlik hədiyyə şəklində 600 lari köçürülüb.

## GÜRCÜSTANDA YAŞAYAN BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VETERANLARININ SAYI AÇIQLANDI

Hazırda ölkəmizdə 1245 Böyük Vətən müharibəsi veteranı yaşayır və onların hamısı Gürcüstan vətəndaşlarıdır. Məlumatı veteranların işi üzrə dövlət xidməti yayıb.

2015-ci ildə Gürcüstanda 1500-ə yaxın veteran yaşayırdı. Onların da 600 nəfəri paytaxt Tbilisinin payına düşürdü.

Böyük Vətən müharibəsi illərində 700 mindən artıq Gürcüstan sakini cəbhəyə gedib. Onlardan 300 min nəfərdən çoxu müharibədə həlak olub, 167 döyüşçü igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

## QARDABANİDƏ İNFRASTRUKTUR LAHİYƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNƏ BAŞLANILIB

Qardabani bələdiyyəsində məktəbə qədər tədris müəssisələrində və infrastrukturların da təmir işlərinə artıq start verilib. Bu barədə məlumatı Qardabani bələdiyyəsinin rəsmi səhifəsi paylaşıb.

Candar kəndində uşaq bağçasının təmiri üçün başladılan lahiyənin ümumi dəyəri 44 999 laridir. Təmir işlərini "Kristine Saraşvili" şirkəti həyata keçirir. Kalinino kəndində isə uşaq bağçasının təmirinə 119 473 lari ayrılacağı bildirilir. Nəzərli kəndində uşaq bağçasının davam etməkdə olan təmirinə 134 076 lari ayrılıb. Martkopi, Təzəkənd və Saçxenidə isə yol infrastrukturlarının təmiri davam edir. Üç kəndin daxili yollarının bərpasına 627 997 lari xərclənəcək.

## ŞƏXSİYYƏT VƏSİQƏLƏRİ PULSUZ VERİLƏCƏK

2016-cı ilin oktyabrında keçiriləcək parlament seçkilərinə qədər şəxsiyyət vəsiqələri olmayan Gürcüstan vətəndaşları onu pulsuz ala biləcəklər. Bu barədə ədliyyə naziri Tea Sulukiani məlumat verib.




Şəxsiyyət vəsiqələrinin pulsuz verilməsi mayın 26-dan iyunun 26-dək mümkün olacaq.

"Mən bəyan edə bilərəm ki, 2016-cı ilin oktyabrında keçiriləcək seçkilərdə ölkənin bütün müstəqillik tarixi ərzində ən keyfiyyətli seçici siyahımız olacaq", – nazir əlavə edib.

Pulsuz şəxsiyyət vəsiqəsi almağı arzulayanlar, 10 gün ərzində şəxsiyyət vəsiqəsini qanuniləşdirən servis agentliyinin və ya ədliyyə evinin istənilən ərazi xidmətinə müraciət edə bilərlər.

"Mükəmməl seçici siyahısı" layihəsini ədliyyə nazirliyi ilk dəfə 2014-cü ildə yerli idarəetmə orqanlarına seçkilər öncəsi həyata keçirmişdi. Ədliyyə nazirliyi seçicilərin sayı haqqında informasiya topladıqdan sonra, biometrik fotoşəkil və pasport məlumatları ilə birlikdə siyahını MSK-ya verir.

2014-cü ildə səsvermə məhz bu cür siyahılarla keçirilmişdi. Seçicilər əvvəlcədən Gürcüstan MSK-nın saytında öz adlarını yenidən yoxlaya və hansı məntəqədə səs verəcəklərini öyrənə bilərlər. Seçicinin müraciətindən sonra saytdakı siyahıda səhvlər də aradan qaldırıla bilər.

## TOKYO ROPE GÜRCÜSTANDA ZAVOD AÇMAQ İMKANLARINI ARAŞDIRIR

Yaponiyanın metal troslar və konstruksiyalar istehsal edən Tokyo Rope şirkəti Gürcüstanda zavod açmaq imkanlarını araşdırır. Bu barədə şirkətin sədri Şiqeto Tanaka baş nazir Georgi Kvirikaşvili ilə görüşündə bəyan edib.

Şirkətin nümayəndələri infrastruktur obyektlərinin inkişaf planı ilə tanış olublar, ölkədə bu istiqamətdə böyük potensialın olduğunu bildiriblər.

Görüşün sonunda Şiqeto Tanaka bəyan edib: "Şirkətimizin 130 yaşı var, o, Yaponiyada ən yaşlı müəssisələrdəndir, bütün dünyada metal troslar istehsalı ilə məşhurdur. Biz Gürcüstana yol tikintisinə aid olan infrastruktur layihələrin inkişaf proqramını öyrənmək üçün gəlmişik. Gürcüstan dağlıq ölkədir. Biz burada böyük potensial görürük və Gürcüstanda zavodlarımızdan birinin tikinti imkanlarını nəzərdən keçiririk".

## MARQVELAŞVİLİ: İNDİ EYNİCİNSLİ NİKAHLAR HAQQINDA DÜŞÜNMƏK VAXTI DEYİL

Eynicinslilər arasında nikah mövzusu Gürcüstanda aktual olmamalıdır, belə ki, ölkədə başqa problemlər var.

Bu fikri ölkə prezidenti Georgi Marqvelaşvili Tbilisi klassik gimnaziyasının şagirdləri ilə görüşdə bildirib.

Eynicinslər arasında nikah məsələsini LGBT cəmiyyətinin hüquq müdafiəçisi Georgi Tatişvili qaldırıb. Onun rəqibləri isə nikahın yalnız qadın və kişi arasında ittifaq olmasına dair ölkə Konstitusiyasında düzəlişlərin edilməsi məsələsini ölkə parlamentinə daşıyıblar.

"Mən bunun yolverilməz olduğunu və ya olmadığını demirəm, mən bunun uydurulmuş mövzu olduğunu deyirəm... Mülki Məcəllədə bu məslə həll edilib: nikah – kişi və qadın arasında ittifaqdır. Nikah bağlamaqla əlaqədar mövqe formalaşdırmaq lazım deyil, çünki o artıq formalaşıb. Bu, qanunvericilikdə qeyd edilib", - Marqvelaşvili deyib.

Marqvelaşvili əlavə edib ki, hər bir insanın azad seçiminə hörmət etmək lazımdır.

"Cəmiyyətdə yalnız müxtəlif tip insanların mövcudluğuna yol verildiyi an azadlıq var olur. Başqasının azadlığını tanımayan insan, azad ola bilməz", – prezident vurğulayıb.

O, həmçinin siyasi seçim azadlığının vacibliyini də qeyd edib. "Avropa yolunu bəyənməyənlər, Avropa yolunu arzulamaya bilərlər, bu isə Avropa və sivilizasiyanın ilk əlamətidir", – Marqvelaşvili deyib və əlavə edib ki, Gürcüstan əhalisinin mütləq çoxluğu Avropa Birliyinə can atır.

## GÜRCÜSTAN PREZİDENTİ ÇİNGİZ FƏRZƏLİYEVİ ƏZƏMƏT ORDENİ İLƏ TƏLTİF EDİB



Gürcüstan prezidenti Georgi Marqvelaşvili gürcü-Azərbaycan mədəni əlaqələrinin inkişafına verdiyi əhəmiyyətli töhfəyə və məhsuldar yaradıcılıq fəaliyyətinə görə Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, Azərbaycan Rəssamlıq Akademiyasının kafedra müdiri, professor Çingiz Fərzəliyevi Gürcüstanın Əzəmət ordeni ilə təltif edib.

Mükafatın təqdimat mərasimi Gürcüstan Milli Tarix muzeyində keçirilib. Ordeni professora Gürcüstan prezidentinin milli azlıqların işi üzrə müşaviri Sofiya Şamanidi təqdim edib.

Öz növbəsində Çingiz Fərzəliyev fəaliyyətini yüksək qiymətləndirib, təltif edən Gürcüstan prezidentinə təşəkkürünü bildirib.

## TBİLİSİDƏ AVROPA GÜNÜ QEYD OLUNDU

Mayın 8-də Tbilisinin Avropa meydanında Avropa gününə həsr olunmuş tədbirlər başlayıb.

Tədbirlərin başlanmasından bir gün əvvəl GDS televiziyasına müsahibəsində AB-nin ölkəmizdəki səfiri Yanoş Herman bildirib ki, tədbirlər Gürcüstanın müxtəlif şəhərlərində iki həftə ərzində davam edəcək.

"Avropa günlərini Gürcüstan vətəndaşları ilə birgə qeyd etmək çox vacibdir. Biz yaxın tərəfdaşlarıq. Bildirmək istəyirəm ki, bu gün biz insan hüquqları, demokratiya və dəyərlər bayramını qeyd edirik və AB-nin dəyərlərini Gürcüstan da yüksək səviyyədə bölüşür", – Herman vurğulayıb.

O, Avropa gününün qeyd olunması ənənəsi haqqında da bəhs edib.

"Biz bu gün 50-ci illərdə yaranmış AB ideyası haqqında ilk sənədin yubileyini qeyd edirik. O vaxtdan başlayaraq, bütün Avropa qitəsinə sülh və əməkdaşlıq gətirən Avropa Birliyi 37 dövlətin birliyi olub. Biz indiyədək bütün qonşuları özünə cəzb edən görünməmiş rifah səviyyəsinə nail olmuşuq", – Herman bəyan edib.

## GÜRCÜSTAN MÜXALİFƏTİ VAHİD SEÇKİ BLOKU YARATMAĞI TƏKLİF EDİR

Gürcüstan müxalifəti 2016-cı il parlament seçkiləri ərəfəsində birləşmək və vahid seçki bloku yaratmaq təklifi ilə çıxış edib. "Sağlam, sağlam düşüncəli qüvvələrə" bu cür çağırışla parlamentə daxil olmayan "Azad Gürcüstan" müxalifət partiyası müraciət edib.

Xatırladaq ki, 8 oktyabr 2016-cı il tarixində keçirilməsi planlaşdırılan parlament seçkilərinə hələ rəsmi şəkildə start verilməsə də, siyasi partiyalar indidən seçici səsləri uğurunda mübarizəyə başlamış və bu münasibətlə bir-birini təkzib edən bəyanatlar səsləndirməkdədirlər.

Beynəlxalq Respublikaçılar İnstitutunun (İRİ) aprelin 29-da nəşr etdirdiyi tədqiqata əsasən hakim "Gürcü arzusu" partiyasına parlament seçkilərində Gürcüstan vətəndaşlarının 20%-i, müxalifətdə qalan "Vahid Milli Hərəkat" partiyasına isə 19%-i səs vermək istədiyini bildirib.

## MƏNƏVİ YOXSULLUĞA APARAN YOLLARA ÖTƏRİ BAXIŞ

**Biz niyə kasıbıq? Sualın sadə və ya bir qədər bəsit səslənəcəyi əndişəsilə, onu bu cür də ifadə etmək mümkündür: biz niyə kasıb olmuşuq və ya biz nədən kasıblıqdan bu qədər şikayətçiyik? Orasını da altını cızaraq qulluğunuza ərz edim kasıblıq, yoxsulluq da demək olar, elə zəhrimar bir zaddır ki, yaxanı tanıdımı və ya sən özün tanıtdınmı, əl çəkən kələk deyil, bir sözlə qapı tanıyası şey deyil. Bu, məsələnin ən üzdə olan tərəfidir. Kasıblığın hər cür təzahürü istər fərd üçün, istər toplum üçün, istər də dövlət və ya xalq üçün olsun üzqaralığıdır, utancvericidir və ən ümdəsi də çoxsaylı problemlər mənbəyidir**.

İndi bu kasıblıq deyiləni götürüb saf-çürük etməyin məqamıdır. Onu irdələdikcə altında dürlü-dürlü müşgüllərin – problemlərin gizləndiyini üzə çıxarmaq mümkündür. Bu sahənin araşdırıcısı olmasan da, müəyyənləşdirə bilirsən ki, zəhrimarın dürlü-dürlü növləri, sortları mövcuddur. Bu sahədə naşı olmama rəğmən mən kasıblığın bir neçə kateqoriyasını fərqləndirə bilirəm. Bunlardan ən üzdə olanı, daha tez gözə dəyəni maddi kasıblıqdır. Adamın üzünə baxdınmı, əynini-başını aşağı-yuxarı süzdünmü yetərlidir. O saat bilirsən ki, qarşındakının cibində üç-beş şahısı yoxdur, pulsuzluğun əlində əsir-yesirdir. Bax, bu yerdə deyiblər, kasıblığın üzü qara olsun və ya yox olsun yoxsulluğu. Düzdür hərdən müşahidən boş da çıxa bilər. Nədən ki, qarşındakı xəsisliyindən, hacıqaralığından, niyyətsizliyindən guya yaman gözlərdən bu yolla qorunduğunu düşünərək, olanını gözdən-könüldən iraq tutmaq üçün bu cür davrana bilər. Və sən də qənaətində aldana bilərsən. İnsanın maddi kasıblığı düzələn məsələdir. O üzdən ki, bir az zəhmətə qatlaşarsan, canını incidərsən, bir təhər bu kasıblıqdan canını qurtarasan. Yoxsa Allahdan buyruq, ağızıma quyruq deməklə kasıblıqdan xilas mümkün deyil. İşin ən bəd tərəfi orasındadır ki, sən kasıb olduğunu əlində bayraq edib, ah-ufunla, ağlarqanlılığınla ətrafındakıların nəzər-diqqətini cəlb etməyə çalışasan, ətrafındakılarda özünə qarşı rəhm oyatmağa və bu vasitə ilə maddi durumunu düzəltməyə cəhd edəsən, üstəgəl özündə bir dilənçilik psixolojisi formalaşdırasan. Artıq bu, sənin mənəvi kasıblığa, mənəvi rəzalətə sürüklənmən üçün kifayət edəcək.

Kasıblığın xüsusi zəhmət tələb olunmadan aşkarlanan bir növü də fiziki kasıblıqdır. Deyək ki, adamın biri digərindən bir balaca çirkindir və ya əlində-ayağında, gözündə-qaşında müəyyən bir fiziki qüsuru var və bütün bunları özünə dərd edir – ay dad, ay aman, o, niyə göyçəkdir, mən çirkin, o, niyə sağlamdır, mən qüsurlu-xəstə. Bu məqamda əli-ayağı düz, bir az da gözəlliyi olanın forsu-ədası da fiziki cəhətdən kasıb adlandırdığımız kateqoriyaya psixoloji basqı yapır. Yəqin "A çirkin sən burda dur, mən gedim, gözəl axtarım" məsəli belə bir məqamın nəticəsində ortaya çıxıb. Bəli, bu məqamda hamının bir dərdi olur, qara qızın iki. Amma əslində çirkin və ya fiziki cəhətdən qüsurlu saydıqlarımız da, Allahın sevimli bəndələridir. Nədən ki, böyük yaradan onları yaxşı bilib, xəlq edib. Kasıblığın bu növündən də, pis-yaxşı qurtarmaq olar. Deyək ki, bir az pul-para taparsan (nəbadə bu məqsədlə banklardan kredit götürəsən) tibb elminin uğurlarından, kosmetik sənayenin inkişafından yararlanaraq, özünə dərd etdiyin bu bəladan da qurtara bilərsən. Vay o gündən ki, bu kateqoriyadan olanlar özləri tərəfindən, elə başqaları tərəfindən də fiziki qüsur sayılan vəziyyətlərindən istifadə edib, kimlərinsə yeyib-içdikərini zəhrimara çevirələr və ya bu qüsurlarından sui-istifadə etməyə çalışalar. Bax, onda meyarlar, ölçülər itir, mizantərəzi pozular və fiziki kasıblıq mənəvi kasıblığa çevrilir.

Qaldı kasıblığın mənim aləmimdə sayca üçüncü sortu olan mənəvi kasıblığa, burada gərək dövriyyəyə bir sıra elm sahələrində çalışanları – psixoloqları, filosofları, təbibləri, teoloqları da qoşasan ki, bəlkə bütöv də olmasa, hər hansı bir qənaətə gəlib çıxasan. Bunun başqa cür ola biləcəyinə isə cüzi bir ehtimal da qalmır və istəsən də bunun altından təkbaşına çıxmağın mümkünsüzdür. Mənəvi kasıblıq insanın mənəvi eybəcərliyinə gətirib çıxarır. Deyək ki, qarşında əyni-başı yerli-yerində, cibində də laridən tutmuş avroya qədər hər cinsdən pulu-parası, altında lüks arabası olan bir zat durur. Sən də onun bu zahiri təm-tərağına, varına-halına hayıl-mayıl olursan. Qarşındakı bu tipi bir balaca qurdalayan kimi, onun nə yuvanın quşu olduğunu anlayırsan, özünü bu üfünət dağarcığından necə xilas etməyi düşünürsən. Baxırsan ki, qarşındakı bu şeytan törəməsinin gözündə cinlər-şeytanlar dingildəşir, başqalarının pis gününə sevinməkdən başqa düşüncəsi yoxdur, özündən başqasının yaxşı gününü istəmir, paxıllıq, qurdluluq, əclaflıq, nanəciblik kimi keyfiyyətləri ilə sinəsi qabarır və sən bu məqamda ondan aralanmaq, aradan çıxmaq üçün bir yol aramaqda çox haqlısan.

**Belələrini mən də, elə hamımız da mənəvi cəhətdən kasıb və ya mənəvi cəhətdən şikəst hesab edirik. Məncə, bu qəbildən olan kasıbların işi qalır Allaha. Maddi kasıblıqdan, hətta fiziki yoxsulluqdan da qurtarmağı mümkün hesab etmək olar. Ancaq mənəvi yoxsulluq insanın özünü uçuruma buraxması kimi bir zaddır. Özünü uçuruma atanı isə oradan kimin çıxaracağı bəlli deyil?**

A . M. ALISOYLU

## TAMAZ MEÇİAURİ GÜRCÜSTANIN NATO-YA İNTEQRASİYA KURSUNU SƏHV HESAB EDİR



Hakim partiyanın parlamentdəki liderlərindən biri olan Tamaz Meçiauri bildirib ki, ölkənin NATO-ya inteqrasiya kursu səhvdir və bu məsələ üzrə yeni referendum keçirilməlidir. Belə ki, ötən referendumun nəticələri saxtalaşdırılmış ola bilər.

"Saakaşvilin hakimiyyəti dövründə, 2008-ci ildə parlament seçkiləri ilə yanaşı Gürcüstanın NATO-ya daxil olmasına dair referendum da keçirilmişdi. Bu seçkilərin saxtalaşdırıldığı qəbul olunsa da, heç kim keçirilmiş referendumun nəticələrinin də saxtalaşdırıla biləcəyi məsələsini qaldırmayıb" – Meçiauri qeyd edib.

Onun sözlərinə görə, əgər ölkə hakimiyyəti Abxaziya və Cənubi Osetiya üzərində nəzarətin bərpa olunması tələbindən imtina etməsə, Tbilisinin Şimali Atlantika alyansına üzv olmasının perspektivi yoxdur.

"Hazırkı hakimiyyət xalqa açıq şəkildə bəyan etməyə hazırdırmı ki,Gürcüstanın NATO-ya daxil olması Abxaziya və Cənubi Osetiyadan imtina edilməsi deməkdir? Düşünürəm ki, yox", – deputat vurğulayıb.

2008-ci ildə Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili regionu Tbilisinin nəzarəti altına almağa cəhd edərək, Cənubi Osetiyaya qoşun yeritmişdi. Lakin bu əməliyyat uğursuzluqla nəticələnmişdi. Moskva isə Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini rəsmi şəkildə tanımışdır.

# BULFÜZUL "BURUN"U

***(OTOLARİNQOLOGİYA)***

***İndi sizə coğrafiyadakı burundan – yəni qurunun dənizin içinə girən dağlıq, qayalıq hissəsindən dolayı (məsələn, Çelyuskin burnu, El-Abyad burnu, Prins Uels burnu, Bayron burnu və sairə və ilaxır), daha çox iybilmə və tənəffüs orqanından danışıram. Özü də necə iybilmə? Sanki ov itidir: burnunu hər kola, hər komaya soxur.***

Bu minvalla Şəhri-Tiflis tərəflərdə Mirzə David-Tarxan Mouravinin, Sankt-Peterburqun göbəyindən aşağıda isə Mirzə Barxudar Babayanın burnu neçə dəfə qapı-pəncərə arasında qaldı; amma nə xeyri? Ara vurmaqdan, hər deşiyə, hər çuxura burun soxmaqdan, çərənçilikdən, naqqallıqdan qalandılarmı?

Amma bir halda ki, bu və bu kimi şeytanşapalağı adamlar burunlarını sizin də işinizə soxurlar, üstəlik də Türkiyəyə və Azərbaycana külbaş küfrlər yağdırırlar, onda icazə verin arazbarı uzaqlardan başlayım…

Mirzə Cəlil Məmmədquluzadə "Qurbanəli bəy" hekayəsinin epiqraf yerində yazıb: "Qoqol, Allah sənə rəhmət eləsin"! Necə ki, Allah-taalanın bircə rəhmətinin səbəbinə "yaradılmışlar bir-birinə rəhm edir, ana balasına məhəbbət bəsləyir, quşlar su içir", bax, eynən həmin oxşar minvalla, Mirzə Cəlilin Qoqola dilədiyi rəhmətin səbəbinə də bu məşhur yazıçının adı Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın hələ də arada-sırada and yerinə çevirdiyimiz Qələmlə və Kitabla birgə xeyirxəbər xoşluqla xatırlanır. Üstəlik, indi Rusiyada və Ukraynada Qoqolun məhz kimə məxsusluğu üstündə bəzi divanə dairələr arasında gedən münafiq mübahisələri görəndə Mirzə Qələmə də, mənə də belə gəlir ki, bəlkə Qoqol heç Mirqorod yaxınlığında deyil, elə Tiflis yaxınlarında doğulubmuş. Hər nə isə… Allah bir də rəhmət eləsin!

Müxtəsəri, unudulmaz Qoqolun "Burun" adlı halalhümmət hekayəsi də var ki, bu hekayədə İvan Yakovleviç adlı bir nəfər çörək doğrayarkən içindən… burun çıxır.

Əgər bu yerdə anaxronizmlərə inansaq, onda sərhesab süjetlərin birində görərik ki, İvan Yakovleviçin "tapdığı" burun Mirzə Barxudar Babayanın burnuna çox oxşayırmış: hətta B.Babayan sanki onun burnundan düşübmüş…

Amma elə ki, B.Babayanın burnu Sankt-Peterburqun göbəyindən aşağıda kəsildi, onda Parisə üz tutdu; üz tutdu ki, həm kəsik burnunu düzəltdirsin, həm də parislilıəri yeni kəşfi ilə tanış eləsin…

…belə bir ehtimal (deyilənə görə, sübut da) var ki, hər bir insan orqanizmində feromon adlı maddə hasil olur və bu maddə əks cinsdə eşq-şövq oyadır; özü də elə eşq-şövq oyadır ki, bir burun o biri burunun iyini aldımı, ilk baxışdan aşiq olmaq yalan olur, ilk iyləməkdən, ilk qoxulamaqdan aşiq olmaq doğru! Sən demə, feromonun iyini alan qadının az qala ağlı başından gedirmiş! Müxtəsəri, B.Babayan Parisdə belə şayiə buraxır ki, guya, o, süni feromon hazırlamağın yolunu tapıb; yəni istəsə, Paris gözəlləri onun dalınca sürü halında gəzər! Paris də, bildiyiniz təki, parfümeriyada-ətriyyatda birinci yerdədir. Təbii ki, "hormon daşıyan" anlamını verən və aktiv bioloji maddə olan feromondan da hamıdan öncə xəbərləri var. Baxmayaraq ki, adamların azı otuz faizinə hər hansı fikri təlqin-sirayət etmək, aşılamaq asandır, amma parislilər görəndə ki, B.Babayan çox naqqallıq, çox çərənçilik eləyir, ərəblər demiş, bulfüzuldur, onda ona imkan verməyiblər: qovublar İrəvan tərəflərə. Eşitdiyimə görə, Siranuş da qırıq burunları qətiyyən sevmirmiş… B.Babayan üstünə-başına hər nə qədər "Homme Parfum" vurur-vursun, Siranuşa feromon lazımdır, ətir yox!

***P.S.***

Süsən-Sünbül tərəflərdə adətən dişə, başa, saça yaxşı qulluq eləyirdilər. İndi də buruna yaxşı qulluq eləmək dəbə minib.

Üstəlik, hətta unudulmaz Qoqolun İvan Yakovleviçi belə, hər nə qədər canfəşanlıq etsə də, hər nə qədər burnunun ucu göynəsə də, ordan-burdan burun çıxmaz. Çünki yeganəmiz Yer üzündə bu qədər burunlaşmaqdan (dalaşmaqdan, sözləşməkdən) sonra adamların burnu yaxşıca-yaxşıca ovulmadımı?..

***Vaxtilə burnunu asanlıqla itirə bilən adamların da öz burunlarının üstündə əsim-əsim əsmələri də bəlkə elə bu ürbənd üzdəndir?***

***…burnunuzu qoruyun!***

İBRAHİMXƏLİL

# TÜRKİYƏ XİN-NİN NÜMAYƏNDƏSİ RUSİYA XİN-NİN MƏTBUAT KATİBİNİ YERİNƏ OTUZDURDU

Türkiyə XİN-nin nümayəndəsi Rusiya XİN-nin mətbuat katibi Mariya Zaxarovanın fikirlərini şərh edərək, bu fikirlərin heç bir əhəmiyyət daşımadığını qeyd edib.

"Bizdən ötrü son zamanlaradək eyni dam altında yaşayan özünün keçmiş müttəfiqlərinə münasibətdə açıq və ya hibrid müharibələr aparanların, 21-ci əsrdə başqalarının ərazilərini qəsb edərək, orada sistemli şəkildə azlıqlara təzyiq göstərib qonşu dövlətlərin ərazi bütövlüyünə hörmət etməyən, daxili problemlərini xarici siyasət sahəsindəki macəralarla ört-basdır edənlərin fikirlərinin əhəmiyyəti yoxdur".

Türkiyə XİN-nin nümayəndəsi Tanju Bilgiç bu barədə "Anadolu" agentliyinə Rusiya xarici siyasət idarəsinin mətbuat katibi Mariya Zaxarovanın fikirlərini şərh edərkən bildirib.

O, bu günlərdə Zaxarovanın "İzvestiya" qəzetinin səhifələrindən Türkiyənin ünvanına söylədiyi çıxışa diqqət yönəldib.

Bilgiçin sözlərinə görə, Türkiyə XİN-nin nümayəndəsinin vəzifəsi başqa ölkələrin keçmişinə və ya gələcəyinə dair şərhlər vermək deyil, dövlətin rəsmi xarici siyasətini aydınlaşdırmaqdır.

Türk diplomat qeyd edib ki, Zaxarovanın bu mülahizəsini də, onun son vaxtlar səsləndirdiyi digər fikirlər kimi ciddi qəbul etməyə dəyməz, onlar hamsı bir mənalı şəkildə təbliğatdır.

"Kim Türkiyəni Osmanlı imperiyasının sonu kimi xatırlayırsa, ilk növbədə özünün indiki vəziyyətini keçmişi ilə müqayisə etməlidir. SSRİ vətəndaşı kimi doğulanlar indi Rusiya vətəndaşıdırlar. Çox qəribədir ki, 20-ci əsr ərzində dövlətçiliyini üç dəfə dəyişən ölkənin nümayəndəsi başqalarına dövlətçiliyin sonu mövzusunda dərs deməyə cəhd edir".



"Türkiyə Respublikası 1923-cü ildən məğrur, sülhsevər və dostluq siyasəti aparır" – Bilgiç qeyd edib.

Rusiya XİN-nin sözçüsü Mariya Zaxarova özünün qeyri-diplomatik, hətta bəzən Ukraynanın və Qərb ölkələrinin ünvanına səsləndirdiyi kobud fikirləri ilə məşhurdur.

# RUSİYA MİNİMAL ƏMƏK HAQQI SƏVİYYƏSİNƏ GÖRƏ ANQOLA VƏ HONDURASDAN GERİDƏDİR

Mayın 10-da "Ədalətli Rusiya" fraksiyasından olan deputat Oleq Şein Rusiya parlamentinin aşağı palatasının bölmə iclasında Rusiyanın saat başına ödənilən minimal əmək haqqı səviyyəsinə görə dünyada 91-ci yeri tutduğunu bəyan edib. Məlumatı PolitRus xəbər portalı yayıb.

Oleq Şein qeyd edib: "Sanksiyalar və karbohidrogenlərin qiymətinin düşməsi iqtisadiyyatı çökdürüb və adambaşına düşən ÜDM kifayət qədər azalıb. Məsələn, Çində orta aylıq əmək haqqı 756 dollar, Rusiyada isə 605 dollar təşkil edir".

O, müxtəlif ölkələrdə hər saat üçün ödənilən minimum əmək haqqı barədə statistik məlumatlar səsləndirib: Rusiya – 0,93; Anqola – 0,95; Honduras 1,06; Tailand – 1,15; Fici – 1,23; Vanuatu – 1,75; Türkiyə - 3,86 dollar.

"Rusiyanın pulları hara gedir? Milli sərvətin 70%-i sayı 1% olan yuxarı təbəqəyə məxsusdur və onlar əməyin yüksək istismarı hesabına əldə olunan bütün məhsullara nəzarət edirlər", – deputat vurğulayıb.

Deputatın misal gətirdiyi rəqəmlərə əsasən, Rusiyadan çıxarılan kapital 1994-cü ildə 14 milyard dollar, 2009-cu ildə 58 milyard dollar, 2014-cü ildə isə 152 milyard dollar olub.

# TÜRKİYƏDƏ CƏRƏYAN EDƏN HADİSƏLƏRİN DETALLARI

Gürcüstanla coğrafi qonşuluğu olan ölkələrdə baş verən mühüm ictimai-siyasi hadisələr şübhəsiz ki, ölkəmizdə də maraqla izlənilir. Türkiyənin Baş naziri Əhməd Davudoğlunun istefa edəcəyi xəbərinin əks-sədası təkcə bu ölkədə yox, eyni zamanda onun hüdudlarından kənarda bir çox yüksək dairələrdə də müzakirə olunmaqdadır. May ayının 22-də keçiriləcək hakim AKP-nin (Ədalət və İnkişaf Partiyası) növbədənkənar qurultayında Əhməd Davudoğlunun partiya sədrliyinə namizəd olmayacağı barədə verdiyi bəyanat, onun eyni zamanda Baş nazirlik postundan getməsi anlamına gəlir.

Son 14 ildə "Çankaya köşkü"nün tək sahibi AKP iqtidarının siyasi kulislərində cərəyan edən hadisələrə və Türkiyə hakimiyyətinin siyasi eşalonunda baş verəcək yüksək çinli kadr dəyişikliklərinə aydınlıq gətirmək yerinə düşərdi. Baş nazir istefa verməsinin səbəbini sırf özünün qərarı olduğunu vurğulasa da, bu heç də inandırıcı görünmür. Çünki, Davudoğlu Türkiyə siyasi elitasından narazı şəkildə ayrılmasını da açıq şəkildə büruzə verdi. Ə. Davudoğlunun istefa səbəbləri sırasınada ilkin ehtimal bu dövlətin prezidenti Rəcəb Tayyib Ərdoğanla müəyyən məsələlərdə yaranmış fikir ayrılığıdır. Qərb dünyası tərəfindən dəstəklənən alternativ siyasi fiqurun yetişməsini xarizmatik liderlik keyfiyyətləri ilə seçilən Türkiyə prezidentini qıcıqlandıran fakt kimi dəyərləndirmək olar. Zaman-zaman Köhnə qitə ölkələrini yerdən yerə vuran Ərdoğan Qərb dünyası üçün loyal və "üzüyola" tərəfdaş imici yaratmır. Avropa ölkələrinin Rusiyaya qarşı tətbiq etdikləri embarqolar zamanı 2014-cü ilin dekabrında Ərdoğanın Putinlə iqtisadi sahədə "alış-veriş"i Qərbi sözün əsl mənasında "pat" vəziyyətinə salmışdır. Davudoğlu isə Avropa tərəfindən daha çox qənaətbəxş sayıla bilçək şəxs hesab edilirdi. Avropaya köç etmiş qaçqınların Türkiyəyə qaytarılması və bu dövlətin ərazisində yerləşdirilməsi lahiyəsinin banisi də məhz Davudoğlu idi. Başqa sözlə desək Avropa Türkiyə prezidentindən daha çox onun Baş naziri ilə "dil" tapırdı. Prespektivdə isə Davudoğlunun Türkiyə prezidentinin nəzarət orbitindən kənara çıxmaq ehtimalı mövcud idi.

Məlum olduğu kimi Türkiyə parlament respublikasıdır. Belə ki, ölkənin daxili və xarici siyasətinin əsas istiqmətlərini bəlli edən yetgi Baş nazirin səlahiyyətləri çərçivəsinə daxildir. Lakin, uzun müddətdir ki, prezident Tayyib Ərdoğan idarəetmənin bu formasını dəyişdirmək, yəni Türkiyədə geniş səlahiyyətli prezident respublikası üsul-idarəsi sistemi tətbiq etmək niyyətindədir. Ölkə konstitusiyasına dəyişikilik etmək üçün isə 330 parlamentarinin bu ideyanın lehinə səs verməsinə ehtiyac duyulur. Avropa siyasi icmalçılarının fikirlərinə görə, Davudoğlunun idarəetmə sisteminin dəyişdirilməsində qətiyyət nümayiş etdirməməsi, onun prezidentlə arasının pozulması ilə nəticələnəcəyinə şübhə yeri qoymur. AKP partiyasının Mərkəzi İdarə Şurasının sonuncu toplantısında adıgedən partiyanın rayon bölmələri sədrlərinin azad edilməsi səlahiyyətinin Davudoğlunun əlindən alınması, artıq Ərdoğanın sifarişi ilə Baş nazirin bu postu tərk etməsinə işarə idi.

Bu da onu deməyə əsas verir ki, Davudoğlu de-yure AKP-nin sədri olsa da, Ərdoğanın partiya üzərində defakto total nəzarəti mövcuddur. Türkiyənin təyin ediləcək yeni Baş nazirinin kimliyi bəlli olmasa da, artıq mətbuatda bir neçə siyasinin adı hallanmaqdadır. Lakin, namizədlərin hamsının Ərdoğanın yaxın çevrəsindən olması onu deməyə əsas verir ki, yeni hökumət rəhbəri prezidentə loyal fiqur olacaqdır. Əks təqdirdə onu da Davudoğlunun aqibəti gözləyəcək. Lakin AKP-yə yaxın mənbələrin bildirdiyinə görə, əslində Ərdoğanla yaxın məsləkdaş olan Davudoğlu ölkənin prezident üsul-idarəçiliyinə keçəcəyi təqdirdə özünün ikinci dərəcəli şəxs durumuna düşməsini istəmədiyindən prezidentlə razılaşdıqdan sonra belə bir addım atmaq qərarına gəlib.

Sahib MUSTAFA

# TACİKİSTANDA RUS SOYAD SONLUQLARI QADAĞAN EDİLDİ

Tacikistanda "-ov", "-ova", "-oviç", "-ovna" kimi rus sonluğu ilə bitən soyadlar rəsmi şəkildə qadağan olunub.

Bu barədə Tacikistanın VVAQ orqanının nümayəndəsi Cəlaləddin Rəhimov məlumat verib. Uşaqları üçün rus soyadlarını saxlamaq istəyən şəxslərlə maarifləndirici iş aparılır. Vəziyyət dəyişməsə, 10 ildən sonra tacik uşaqların yarısı milli, digər yarısı rus soyadı daşıyacaqlar.

Onun sözlərinə görə, bundan sonra doğulan taciklər "zod", "zoda", "y", "iyon", "far" sonluqlu soyadlar daşıyacaq. Qanuna dəyişiklik ölkə parlamenti tərəfindən hələ yanvar ayında qəbul olunmuşdu. Qanun ancaq tacikəsilli vətəndaşları əhatə edəcək. Digər etnoslar özlərinə uyğun soyad daşıya bilərlər.

# ALLAH ÖZÜNƏ DUA ETMƏYİMİZİ İSTƏYİR

***Bizlər cəmiyyət olaraq, başımıza gələn hadisələrin əsl səbəbini araşdırmaq və ondan xilas olmanın yollarını axtarmaq yerinə, həlli mövzusunda ümumiyyətlə işin asan tərəfinə qaçarıq. Heç bir məna verə bilmədiyimiz, ağlımızın yatmadığı, ancaq cəmiyyətdə məşhur olan mövzulara belə müraciət etməkdən çəkinmirik. İstədiyimiz, ancaq edə bilmədiyimiz işlərin həyata keçməsi üçün ağlın və məntiqin qəbul edə bilməyəcəyi şeylərə əl atırıq. Quranın əsla qəbul etmədiyi cadugərlərə gedirik. Hətta dualarımıza belə fərqli mənalar yükləyirik, cadu-piti yazıb boynumuza asırıq. Guya ki, bunları etdiyimiz zaman bütün istəklərimiz dərhal reallaşacaq.***

Halbuki başımıza gələnlərin, ya bizim etdiyimiz işlərin qarşılığı, ya da Allahın təqdiri, imtahanı olduğunu unuduruq. Hadisələri qiymətləndirib dərs almaq yerinə, bunlardan asanca xilas olmanın yollarını axtarırıq. Təbii ki, bu mümkün deyil. Etdiklərimiz bihudə səylərdən başqa bir şey deyil, bunu unutmayaq.

Bu yazını yazmağıma səbəb aşağıda tərcüməsini verəcəyim bir dua haqqında eşitdiklərim oldu. Allaha dua etmək əhəmiyyətlidir. Daha doğrusu Allah özünə dua etməyimizi və ondan istəməyi özü bizə əmr edir. Ayrıca bir çox dua nümunələri də Quranda vardır. Təbii ki, Quranda olanlardan başqa istədiyimiz duanı da edə bilərik. Bunda bir məhdudiyyət yoxdur.

Haqqında eşitdiyim və Şahməran adı verilən bu dua Quranda, ya da hədislərdə keçməz. Amma olmaması bizlərin bu duanı etməyəcəyimiz mənasına da gəlməz. Yetər ki, Quranın təliminə tərs düşməsin.

Burada səhv olan bu duaya qismət duası, ya da eşq duası kimi adların verilməsidir. Onsuz da duanın tərcüməsini oxuduğunuzda, bəhs edilən mövzularla heç bir əlaqəsinin olmadığını görəcəksiniz. Duanın tamamının Quranın bir çox yerində bəhs edilən Allahın ucalığından, gücündən, sifətlərindən, onun hikmətindən ibarət olduğunu görəcəksiniz. Duanın tərcüməsinə baxaq:

"Hər şeyə həyat verərək dəstək olan, gerçək həyat sahibi Rəbbim, səndən başqa ilah yoxdur. Hər şeydən uca olan hikmət sahibi Rəbbim, sən gizli və aşkar hər şeyi bilən və eşidənsən. Sən çox mərhəmətlisən. Hər şeyin tək və ortaqsız yaradıcısısan. Rəbbim səndən başqa ilah yoxdur. Tayı və bənzəri olmayan Rəbbim, sən yaradılanlara qarşı mərhəmətli və şəfqətli olansan. Əzəməti böyük, mərhəmətli və hər şeyə qalib olan Rəbbim, səndən başqa ilah yoxdur. Hər şeyi haqqı ilə bilən və hər şeyi hikmət ilə açan Allahım, hər şeyə gücü çatan, qadir Allahım, böyük ərşin və hər şeyin sahibisən. Qəflət, acizlik və səhvlərdən uzaq Allahım, səndən başqa ilah yoxdur. Ölənləri dirildəcək olan və bütün varlıqların gerçək varisi olan Allahım, səndən başqa ilah yoxdur və bütün gözəl adlar yalnız Sənə aiddir."

Nə gözəl bir dua deyilmi? Bizlər hər cür dua edə bilərik, ancaq həddi aşmadan, fərqli mənalar verməadən dua edək. Bu duanın oxunması üçün bəlli kimsələrin və təyin olunmuş vaxtın şərt qoşulması doğru deyil. Bəli, namazdan sonra və dəstəmazlı olaraq edilən duaların daha məqbul olacağı bildirilmişdir. Bizlər hər anımızda Uca Rəbbimizə dua edib, ondan kömək diləyə bilərik. Bu hər mövzuda ola bilər. Yetər ki, Allahdan nə istədiyimizi biləк və doğru bir üslubda istəyək. Daha əhəmiyyətlisi, Allahdan bir şey istəməyə üzümüz olmalıdır. Namazdan kənar və ya dəstəmazsız olduğumuz zamanlarda da Allaha dua edə bilərik. Bu mövzuda Uca Allah belə buyurur: "Qullarım sənə, məni soruşduğunda (söylə onlara): Mən çox yaxınım. Mənə dua etdiyi vaxt dua edənin diləyinə cavab verərəm. O halda (qullarım da) mənim dəvətimə uyğun gəlsinlər və mənə inansınlar ki, doğru yolu tapsınlar." (Bəqərə 186)

Ayədə də çox açıqca, qullarım mənim dəvətimə uyğun gəlsinlər, əmrlərimi yerinə yetirsinlər ki, mən də onların dualarına cavab verim deyir. Əvvəl layiq olmaq üçün səy göstərməliyik, Allahın istədiyi yolda getməliyik. İstədiyimiz, arzu etdiyimiz şeylərin gərəklərini yerinə yetirməliyik. Universitet imtahanına hazırlaşmasaq necə ola bilər ki, bir duanı bir neçə dəfə oxuyunca imtahanı qazanaq.

Bəzi insanlar o qədər dua edirəm, yalvarıram ancaq qarşılıq görmürəm deyir. Bu sözləri söyləmək belə bizlərin acizliyini, düşüncəsizliyini, hətta bizlərin nə qədər hövsələsiz olduğumuzu göstərir. Allah boş yerə əzab edən deyil. Bizlər nəyin nə vaxt xeyirli olduğunu, nə vaxt bizlərə şər gətirəcəyini bilmirik. Hətta Quranda verdiyi nümunədə, "Sizə gələn şər, bəlkə sizin üçün xeyirlidir, siz bilməzsiniz Allah bilir" deyilir. Yenə tam tərsi, "Başınıza gələn xeyir sandığınız şeylərdə bəlkə sizin üçün şər vardır. Allah bilir, siz bilməzsiniz" deyə bizləri xəbərdar edir.

***Gəlin bu dünyadakı imtahanımızı, belə səhv inanc və düşüncələrimizlə sadələşdirməyək, itirənlərdən olmayaq.***

Hacı BƏKİROĞLU

# OMBUDSMEN POLİS ZORAKILIĞI HALLARININ ARTDIĞINI QEYD EDİB



Gürcüstanın xalq müdafiəçisi Uça Nanuaşvili jurnalistlərə açıqlamasında keçən il polis zorakılığı və qeyri-qanuni rəftar etmə faktların sayının artdığını bildirib.

Ombudsmenin "2015-ci ildə Gürcüstanda insan hüquq və azadlıqlarının müdafiəsinin vəziyyəti haqqında" hesabatı parlamentin insan hüquqları və vətəndaş inteqrasiyası komitəsində baxılır.

"Hesabatın onlarla səhifəsi polislərin saxlanılan şəxslərə qarşı qeyri-qanuni rəftarı haqqındadır. Ötən il əvvəlki illərdən fərqli olaraq polis zorakılığı və polisin qeyri-qanuni rəftarının sayında artım qeydə alınıb, əvvəllər bu cür faktlar cəzaçəkmə müəssisələrində daha çox olurdu. Hesabatda həm səs-küylü, həm də az əks-səda doğuran faktlar barədə danışılır", – Nanuaşvili bəyan edib.

# APRELDƏ ƏN BÖYÜK MALİYYƏ YARDIMI "VƏTƏNPƏRVƏRLƏR ALYANSI"NA EDİLİB

Siyasi partiyaların maliyyə monitorinqi xidmətinin yaydığı məlumata görə, Gürcüstanda mövcud siyasi partiyalar 2016-cı ilin aprel ayında ianə şəklində 604 min 747 lari və ya 272,1 min dollara yaxın maliyyə almışlar.

268 min 500 lariyə yaxın və ya təqribən 120,4 min dollarlıq ən böyük məbləği İrma İnaşvilinin başçılıq etdiyi müxalifətdə olan "Vətənpərvərlər alyansı" partiyası alıb.

Hakim "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyası 149 min lariyə yaxın (66,8 min dollara yaxın) ianə alaraq, bu sıralamalarda ikinci yeri tutub.

124 min lari və ya 55,6 min dollara yaxın ianə alan "Yeni siyasi mərkəz – Qirçi" siyahıda üçüncü olub.

Kiyevin keçmiş meri, milyonçu Leonid Çernovetskinin "Xoşbəxt Gürcüstan uğrunda" partiyası 45 min 939 lari, başqa sözlə 29,6 min dollara yaxın ianə ilə sonrakı pillədə qərarlaşıb.

Keçmiş hakim partiya olan "Vahid milli hərəkat"a apreldə cəmi 900 lari və ya 403 dollara yaxın ianə şəklində yardım edilib.

"Respublikaçılar" partiyasına 1131 lari, Nino Burcanadzenin "Demokratik hərəkat" partiyasına 600 lari, "Gürcüstanın mühafizəkarlar partiyası"na isə hamıdan az, cəmi 120 lari bağışlanıb.

# TARİXDƏ İLK DƏFƏ LONDONUN MERİ MÜSƏLMAN OLDU



Xan insan haqları sahəsində ixtisaslaşmış hüquqşünasdır.

Leyboristlər partiyasının nümayəndəsi Sadiq Xan London meri seçilib. O, tarixə bu vəzifəni tutan ilk müsəlman kimi daxil olub. Xəbəri xarici KİV-ə istinadən RİA Novosti agentliyi yayıb.

Əslən pakistanlı olan 46 yaşlı Sadiq Xan fəhlə ailəsində doğulub, onun atası avtobus sürücüsü olub. Səkkiz nəfərdən ibarət ailə London kənarındakı sosial mənzildə yaşayıb. Xan insan haqları sahəsində ixtisaslaşmış hüquqşünasdır. O, 2008-2009-cu illərdə yerli idarəetmə məsələləri üzrə dövlət naziri postunu tutub, 2009-2010-cu illərdə isə nəqliyyat məsələləri üzrə dövlət naziri işləyib.

2013 və 2015-ci illərdə Sadiq Xan Böyük Britaniyada "ilin hüquqşünası" seçilib. Onun həyat yoldaşı Sədiyə Əhməd də hüquq müdafiəçisidir. Cütlüyün iki uşağı var.

# 2016-CI İLİN ƏVVƏLİNDƏN DÜNYADA ƏN AZI 40 JURNALİST HƏLAK OLUB




2016-cı ilin əvvəlindən dünyanın 18 ölkəsində ən azı 40 jurnalist öldürülüb. Bu barədə iqamətgahı Cenevrədə yerləşən Press Emblem Campaign (PEC) təşkilatının məruzəsində məlumat verilib.

Təşkilat jurnalist fəaliyyəti üçün daha çox təhlükəli olan ölkələrin indeksini də tərtib edib.

Əfqanıstanda səkkiz jurnalist öldürülüb, Meksika və Yəmənin hər birində beş, İraq və Türkiyənin hər birində üç jurnalist həlak olub. Suriya və Pakistan kimi ölkələrin hər birində təşkilatın hesablamalarına görə, iki KİV işçisi qətlə yetirilib.

Təşkilat Rusiyada da bir jurnalistin öldürülməsi hadisəsini məruzəsinə daxil edib. Məruzədə öldürülən jurnalistin kimliyi dəqiqləşdirilməyib.

Xatırladaq ki, aprelin əvvəlində radio və televiziyada öz fəaliyyəti ilə məşhur olan jurnalist Dmitri Silikin Sankt-Peterburqdakı mənzilində ölü olaraq tapılmışdı. Aprelin 6-da jurnalistin qətlində şübhəli bilinən 21 yaşlı tələbə Sergey Kosırev saxlanılıb.

# SARKOZİ TÜRKİYƏ ƏLEYHİNƏ NÖVBƏTİ İDDİALARINI SƏSLƏNDİRİB



Fransanın keçmiş prezidenti Nikola Sarkozi Türkiyə ilə Şengen dövlətləri arasında viza rejiminin ləğvindən sonra bu ölkənin Avropa Birliyinə daha da yaxınlaşacağından əndişə duyduğunu gizlətməyib. "iTele" telekanalına müsahibəsində o, narahatlığını belə ifadə edib: "İnkişaf etmiş ölkə olmasına və Asiya ilə Avropa arasında körpü rolunu oynamasına baxmayaraq, Tükiyə AB-yə qəbul edilməməlidir. Bu heç də o demək deyil ki, mən türklərin əleyhinəyəm, yox, onlar bizə lazımdırlar, bizimlə NATO çərçivəsində müttəfiqdirlər. Amma biz durub iddia etsək ki, Türkiyə Avropadır, onda gərək şagirdlərə də birbir başa salaq ki, Avropanın sərhədləri eləcə Suriyadan keçir. Bu isə sağlam məntiqdən xeyli uzaq görünür".

Eks-prezident Türkiyəni AB-də görmək istəməməsini onunla əsaslandırıb ki, bu ölkə Qərbin bir sıra demokratik dəyərlərinə cavab vermir, üstəlik, coğrafi baxımdan böyük bir hissəsi Asiyanın payına düşür:"Sual yaranır – Türkiyəni istər tarixi, istər mədəni, istərsə də iqtisadi baxımdan nə dərəcədə Avropa ölkəsi saymaq olar? Əgər cavabımız müsbət olsa, deməli, biz Avropa Birliyinin ölümünü istəyirik". Nikola Sarkozi çıxışının sonunda antitürk ovqatını açıq-aşkar ifadə etməkdən özünü saxlaya bilməyib: "Məndən olsa, Rusiya – Türkiyədən daha çox Avropa ölkəsidir".

Xatırladaq ki, Sarkozi özünün anti-türk çıxışları ilə tez-tez gündəmdə olmağı sevir.

# KİMLƏR GƏLDİ, KİMLƏR GETDİ...



Həm sağlığında, həm də dünyasını dəyişəndən sonra insanların xatirəsində yaşayan, hörmət və ehtiramla anılan şəxsiyyətlərdən biri mənim babam Süleyman Abdullayevdir.

Babamı itirəndə cəmi bir yaşım varmış. Ona görə də babamı ancaq böyüklərimizin danışdığı xatirələrdən, kitablardan tanımışam. Süleyman baba gözəl insan, mehriban ailə başçısı, əsl ziyalı, təlim və tərbiyə işinin bacarıqlı təşkilatçısı idi.

Süleyman Əhməd oğlu Abdullayev 1930-cu ildə Qarayazı mahalının Kosalı kəndində anadan olmuşdur. Atası Əhməd kişi dini təhsilli, mütərəqqi fikirli insan olmuşdur. S.Abdullayev 1949-cu ildə Kosalı kənd məktəbini bitirmişdir. Valideynləri elmə, ali təhsilə xüsusi maraq göstərdiyini nəzərə alaraq, onu 1950-ci ildə Bakıya axşam məktəbləri üçün rus dili və ədəbiyyatı müəllimləri hazırlayan ikiillik kursa göndərirlər. Bir il Kosalı orta məktəbində rus dili və ədəbiyyatını tədris edir. S.Abdullayev ikillik kursda aldığı nəzəri və pedaqoji hazırlığın azlığını hiss edir və təhsilini davam etdirmək qərarına gəlir. O, 1953-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutuna daxil olur. İnstitutu bitirdikdən sonra yenə doğma kəndə qayıdır və pedaqoji fəaliyyətini davam etdirir. İşgüzarlıq və təşkilatçılıq keyfiyyətləri nəzərə alınaraq, S.Abdullayev 1960-cı ildə Gürcüstan KP Qardabani Rayon Komitəsinə təlimatçı keçirilir. Dörd il həmin vəzifədə çalışır və 1964-cü ildə Bakı Ali Partiya məktəbinə göndərilir. 1967-ci ildə ali partiya təhsilini başa vuran S.Abdullayev rayonun ən iri təsərrüfatlarından olan Candar sovxoz partiya komitəsinin katibi seçilir. S.Abdullayev 1968-ci ildən pedaqoji işə qayıdır. 1968-1970-ci illərdə Ruisbolo səkkizillik məktəbində direktor, 1970-1977-ci illərdə Kosalı orta məktəbində dərs hissə müdiri, 1977-1982-ci illərdə Nəzərli orta məktəbində direktor, 1983-1990-cu illərdə Kosalı orta məktəbində direktor vəzifələrində çalışır. 1990-cı ildə S.Abdullayev təqaüdə çıxır.

Süleyman Əhməd oğlu Abdullayev 1993-cü ildə iyun ayının 15-də 63 yaşında dünyasını dəyişir.

S.Abdullayevin Səmərəli pedaqoji fəaliyyəti yüksək qiymətləndirilir. O, keçmiş SSRİ-nin və Gürcüstan SSR-nin maarif əlaçısı, baş müəllim, metodist müəllim fəxri adlarına layiq görülür, digər mükafatlar alır.

Pedaqogika elminin banisi məşhur çex pedaqoqu Yan Amos Komenski müəllimlik sənətini yüksək qiymətləndirərək, müəllimi şüa saçan günəşə bənzətmişdir. Süleyman müəllim də bir günəş kimi şagirdlərinin həyat yolunu daima işıqlandırmış, onlara düzgün yol göstərmiş, savadlı və tərbiyəli bir nəslin yetişməsində əvəzsiz rol oynamışdır. Bəli, məhz həmin bu insan mənim babamdır.

Mən də nəvəsiyəm, gül dəstəsiyəm.
Bu adı mənə babam veribdir.
Taleyin bu elə bir töhfəsiyəm,
O mənim adıma Jalə deyibdir.

Mən fəxr edirəm ki, belə nəcib, gözəl bir insanın nəvəsiyəm, bir müəllim kimi onun yolunu davam etdirirəm.

Baba, bilirəm ki, bizi həmişə izləyirsən. Vaxtilə işlədiyin Nəzərli məktəbinin həyatinə hər dəfə daxil olduğumda, öz əllərinlə əkdiyin, qulluq elədiyin ağaclara baxdığımda qürur hissi keçirirəm. Çox sevinirəm ki, səndəki məsuliyyət, elm yolunda həvəslə işləmək eşqi mənə də keçmişdir. Mən səni ancaq şəkillərdə görmüşəm və çox maraqlıdır ki, nə vaxt xəyalımda canlandırmağa çalışsam, həmişə gülərüzlü xəyal edirəm.

Ömür vəfa etsəydi, səninlə azca da olsa, söhbət edərdim, hələ də dillərdən düşməyən məsəllərini bircə dəfə də olsa, öz səsindən eşidərdim. Ancaq həyat səni bizdən tez ayırdı. Deyirlər, Allah sevdiyi bəndələrini öz yanına tez aparır. Bəlkə, buna görə 63 il – bir peyğəmbər ömrü yaşadın. Bir tərəfdən həmişə kədərlənir, çətinlik olanda varlığını axtarırıq. Ancaq insan bu həyatda etdiyi əməlləri, yaxşılıqları ilə xatırlanır, biz də sənin xeyirxah əməllərini, qurub yaratdıqlarını, böyükdən-kiçiyə etdiyin yaxşılıqları xatırlayanda ürəyimiz təsəlli tapır, əziz xatirəni qəlbimizdə yaşadırıq. Dahi şairimiz Səməd Vurğun deyir:

Ölüm sevinməsin qoy, ömrünü vermir bada
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada,
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Allah rəhmət eləsin!

Jalə LOĞMANQIZI
Nəzərli ictimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi

# GÜRCÜSTANIN CİNAYƏT QANUNVERİCİLİYİNƏ FEMİSİD ANLAYIŞI DAXİL EDİLƏCƏK



Femisid – gender əlamətləri ilə əsaslandırılaraq qadınların qəsdən qətlə yetirilməsidir. Bunun Gürcüstan cinayət məcəlləsinin xüsusi maddəsi ilə cəzalandırılması mümkün olacaq. Məcəlləyə daxil ediləcək yeni maddəyə əsasən femisid xüsusilə ağır cinayətlər kateqoriyasına aid ediləcək.

Deputatlar Tamar Kordzaya və Tamar Xidaşeli parlamentə femisid – qadınların gender əlamətləri ilə əsaslandırılaraq ərləri, keçmiş ərləri, partnyorları, keçmiş partnyorları və ya ailənin digər üzvləri tərəfindən qəsdən qətlə yetirilməsinə görə 11 ildən 14 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılmasını nəzərdə tutan qanun layihəsi irəli sürüblər. Əgər eyni hərəkət hamilə, azyaşlı və ya köməksiz vəziyyətdə olan qadınlara, qruplara münasibətdə həyata keçirilibsə, 13 ildən 17 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Layihəyə əsasən, bu hərəkət iki və ya daha çox şəxsə qarşı amansızlıqla yerinə yetirilibsə və sifarişlə həyata keçirilibsə 16 ildən 20 ilədək və ya ömürlük azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılacaq.

# GÜRCÜSTANDA BÜTÜN SUBAY OĞLAN VƏ QIZLAR QEYDİYYATA ALINACAQ

Yaradılması 26 may 2016-cı il tarixində nəzərdə tutulmuş Demoqrafik İnkişaf Agentliyi Gürcüstanın subay vətəndaşalrının qeydiyyatını həyata keçirəcək. Bu təşəbbüslə “Gürcüstanın demoqrafik inkişaf fondu” adlı qeyri-hökumət təşkilatı çıxış edib.

“Bütün ölkə üzrə subay oğlan və qızların qeydiyyatı aparılacaq, vahid məlumat bazası yaradılacaq və biz insanların ailə qurmasına yardım edəcəyik”, – fondun bəyanatında deyilir. Bunun necə həyata keçiriləcəyi barədə isə QHT dəqiq məlumat vermir.

Gürcüstan Ədliyyə nazirliyinin məlumatına görə, 2015-ci ildə Gürcüstanda nikahların sayı 2014-cü illə müqayisədə 7,1% azalıb. Keçən il cəmi 29 277 cütlük nikaha daxil olub.

# QARDABANİ BƏLƏDİYYƏSİNİN SƏDRİ MƏKTƏB ŞAGİRDLƏRİ İLƏ GÖRÜŞÜB



Mayın 10-da Qardabani bələdiyyəsinin sədri Qoça Camarauli Qardabani 4 saylı məktəbin, Kalinino, Nəzərli və Candar ictimai məktəblərinin şagirdlərini qəbul edib. Görüş “SİKA” ( Maarifləndirici təşəbbüslər gürcü assosiasiası ) qeyri-hökumət təşkilatının təşəbbüsü ilə keçirilib. Bələdiyyə sədri və şagirdlərin görüşü sözügedən təşkilatın 480 məktəbi əhatə edən “Gələcək nəsil” layihəsinin bir hissəsini təşkil edib. Bu barədə Qardabani bələdiyyəsinin rəsmi səhifəsində məlumat verilib.

Görüşdə yeniyetmələr bələdiyyə rəhbərinə kəndlərində mövcud olan problemlərdən bəhs ediblər. Xüsusilə Nəzərli ictimai məktəbinin şagirdi Həqiqət Yolçuyeva ictimai nəqliyyat problemini dilə gətirib. O, Nəzərlidən Tbilisiyə marşrut işləmədiyini, paytaxta getmək üçün Kosalı kəndinə gəlməli olduqlarını bildirib. Nəzərli məktəbinin şagirdi həmçinin, məktəbin ətraf ərazilərində təmizliyə riayət edilməsi üçün məktəbin qarşısına zibil qutularının yerləşdirilməsini xahiş edib.

Kalinino məktəbinin şagirdləri isə mini stadion tikilməsini istəyiblər.

Bələdiyyə sədri şagirdlərə problemlərinin yaxın zamanlarda həll ediləcəyini vəd edib.

# VAHİD MİLLİ İMTAHANLAR İYULUN 1-DƏ BAŞLAYACAQ

Vahid milli imtahanlar iyulun 1-də start götürəcək. Bu brədə Milli imtahanlar və qiymətləndirmə mərkəzindən məlumat veriblər.

Mərkəzin məlumatına görə, abituriyentlər gürcü dili və ədəbiyyatından 1 və 2 iyul tarixində imtahan verəcəklər.

4-5 iyulda ümumi qabiliyyət üzrə imtahan keçiriləcək. 6-7 iyulda ingilis dili, 6 iyulda rus və fransız dili, 7 iyulda rus və alman dili, 8 iyulda vətəndaş təhsili, 11 iyulda kimiya, 14 iyulda riyaziyyat, 15 iyulda coğrafiya, 18 iyulda tarix, 19 iyulda ədəbiyyat, 20 iyulda biologiya, 21 iyulda fizika, eləcə də təsviri və tətbiqi incəsənət üzrə imtahanlar olacaq.

Xatırladaq ki, 2016-cı ildə imtahanlar qismən elektron formatda veriləcək. Format dəyişikliyi yalnız testlərin elektron şəkildə təqdim olunmasını nəzərdə tutur. Testlərin cavabları isə vərəqdə qeyd olunacaq.

Bu il Vahid Milli imtahanlarda iştirak etmək üçün 41500 abituriyent qeydiyyatdan keçib.

# VAHİD MİLLİ İMTAHANLARDA ABİTURİYENTLƏRİN İŞ STOLU BİLGİSAYARLARLA TƏMİN OLUNACAQ

Gürcüstan Milli imtahanlar və qiymətləndirmə mərkəzinin saytında xəbər verilir ki, bu il ilk dəfə vahid milli imtahanlarda hər bir abituriyentin iş masası bilgisayarlarla təmin olunacaq.

Abituriyentlər tapşırıqlarlarla bilgisayar vasitəsilə tanış olacaq, cavabları isə yazılı şəkildə verəcəklər.

Vahid milli imtahanlarda iştirak etmək üçün 41,5 mindən çox abituriyent qeydiyyatdan keçib, ali təhsil müəssisələrində isə 44 min yer var.Abituriyentlər gürcü dili, xarici dil və ümumi qabiliyyət üzrə üç məcburi fəndən və bir seçim fənnindən mtahan verəcəklər. Arzulayanlar dördüncü fənni iyunun 1-dək dəyişə bilərlər.

Bu ilki yeniliklərdən biri də ümumi qabiliyyət üzrə testlərin abxaz və osetin dilinə tərcümə olunmasıdır.

İmtahan kartını indi Milli imtahanlar və qiymətləndirmə mərkəzinin saytında qeydiyyatdan keçməklə də almaq mümkündür. İmtahanlarda ən yüksək nəticə göstərən abituriyentlər pulsuz təhsil qrantı alacaqlar. Maksimum bal toplamasa da, balı yüksək olanların da təhsil haqqı qismən – 50% və 70% həcmində maliyyələşdiriləcək.

# QƏDİM TİFLİSİN SAZ VƏ SÖZ USTALARI

**Qədim Tiflisin qədimliyində sazın-sözün öz yeri olub. Saza-sözə qiymət qoyulub. Qədim Tiflisin küçə və bağlarında, çayxana və traktirlərində tavar sazın, qara zurnanın, kamanın-tarın ecazkar səsi, ahəngi, səs uyuşu öz həvəskarlarının ruhunu oxşayıb, onlara xüsusi zövq verib. Qədim Tiflisin koloritində sazəndə, xanəndə, aşıq və ozan özünəməxsus yer tutub. Qaraçoxelilər (qaraçuxalılar) tərəfindən bağ və küçələrdə, Kür üzərindəki ot tayasında gecələr şamın, çırağın işığında bayatı, müxəmməs, şikəstə, təsniflər üstündə oxunan havalar qəlb oxşayıb, ruha qida verib. Qədim Tiflisə yaxşı bələd olan şair-akademik İosif Qrişaşvili burada yaşayıb yaradan sazəndələrdən yazarkən Mirzəcan, Hacı Yusif, Məşədi İsi, David bəy (Tarzən), Abdülbaqi (Bülbülağa), Dilmanlı Həsən, Zülal, Həsənçə, Həşim, Ağacan, Şöhliyyə, Allahverdi, Səttar, Cəfər və başqalarının adını çəkib.**

Qədim Tiflisdə segah, şikəstə, təsnif, bayatı, rast, şüştər, cahargah, şahnaz və sair üstündə ifa olunan havalar çox geniş yayılmışdı. Müxambazi – Tiflis qaydasında xüsusi ahəng və ritm ilə ifa olunan muğamat Tiflis koloriti üçün xarakterik idi. Aleksi Barnovun dediyinə görə, "İran muğamatından fərqli olaraq onun ləmsini uzatmaq-yubatmaq xarakterizə etmir. Müxambazi Tiflisdə yaranmış və yalnız orada ifa olunur". El sənətkarları aşığı və ozanı xarakterizə edən saz və söz ifadələri bir-birinə yaxın, demək olar ki, bir-birini tamamlayan məfhumlardır. Odur ki, saz söyləyəndə söz yada düşür, söz söyləyəndə saz. Aşıq, ozan bu ifadələri də özündə birləşdirən bir sənətkar olub.



Metex qalası yaxınlığında Şeytanbazarda bir neçə çayxana, qəhvəxana olub. Yeddi Uşaq Məhəmmədəlinin (onu yeddi övladı olduğuna görə belə çağırırdılar), Cühüd İsmayılın, Qara Xəlilin, Qumarbaz Allahverdinin, Aşpaz Ağabalanın, Seyidin, Əlizadənin və başqalarının çayxanaları olub. Bundan başqa bəzi karvansaralarda, o cümlədən iranlı Sadığın karvansarasında çayxana olub. Sadığın karvansarası Gəncə qapısının üst tərəfində, indiki Axundov küçəsinin yaxınlığında yerləşirmiş.

Çay, meyvə qurusu və şirin çörəklərdən başqa müxtəlif ləziz Şərq xörəkləri ilə qəlyanaltı etmək istəyənlər bu çayxanalara gələrdilər. Bura aşıqlar da çox gələrdi. Aşıqların toplaşdığı yerlərdən biri də bura idi. Həmişə burdan musiqi səsi ucalardı. Aşıqlar çalıb, oxuyardılar. Bu çayxanalarda çayçılar pürrəngi çay verər, bufetdə isə şirniyyat: halva, xuşkəbər, səbzə, ləbləbi, qaysı, xurma, şəkərbura, paxlava, şəkərçörəyi, myanpur, qoz-badam ləpəsi olardı.

Gürcüstanın xalq artisti, adı Tiflis Dövlət Azərbaycan Dram Teatrı ilə sıx bağlı olan İbrahim İsfahanlı öz xatirələrində yazır:

"…Şeytanbazarda Azərbaycandan gələn aşıqlar çayxanalarda oxuyub-çalmaları ilə, öz dövrlərinə uyğun dastanları nağıl etməklə, xalqımızın bir hissəsini, söz yox ki, ən zəhmətkeş hissəsini özlərinə cəlb edirdilər. Bu aşıqlar çox zaman Ramazan ayında gəlirdilər. Bunlardan başqa, çox qədimdən Türkiyədən Tiflisə gəlmiş Yaqub Şükri əfəndinin Kürün kənarında böyük bir çayxanası var idi. Türkiyənin ən məşhur Qaragöz oyununu nümayiş etdirən Bəkir əfəndi Həqqizadə qış gecələrində saat 7-dən başlayaraq fasilə ilə ta 12-yə qədər Qaragöz tamaşalarını verirdi. Bu tamaşalar varyete şəklində olub əsərlərin çox hissəsi həcv kimi ifa edilirdi… Mənim özümü də bu tamaşalara əmim çox aparmışdı".

Saz-söz həvəskarları bura çox gəldiyindən çayçılar aşıqların deyişmələrini təşkil edərdilər. Həmin dövrlər mehmanxanalarda, karvansaraylarda traktir, yəni yeməkxana mövcud idi. Traktir alman sözüdür, yeməkxana deməkdir. XIX əsrin 30-cu illərinin əvvəllərində İrəvan meydanı yaxınlığında "Palçıqlı küçə"də Pol Matas adlı bir şəxs kiçik və dar evdə mehmanxana açmışdır ki, qonaqlar burda gecələmiş və nahar edə bilmişlər. Jan Fransua Qamba da burada gecələmişdir. Matasın bu traktir-mehmanxanasında 1829-cu ildə Tiflisə gələn A. S. Puşkin gecələməli olmuşdur. Riğedə (Çaylaqda) o dövrlər Qafqazda məşhur olan kolonist Zelsmanın traktiri yerləşirdi. Həmin traktirlərin divarlarından saz asılardı. Yerli aşıqlar ilə İrandan gələn aşıqlar arasında deyişmələr olurdu.

Aşıq poeziyasının vurğunu şair-akademik İosif Qrişaşvili bu barədə yazır:

"Aşığın biri bir vərəqə şeir şəklində bir bağlama yazardı. Bu vərəqi əl ilə, qızıl və gümüş saplarla toxunmuş bahalı Kirman şalının və ya ipək Bağdad kəlağayısının üstünə yapışdırar, qəhvəxananın bir yerindən asardılar. Bu qəhvəxanaya başqa-başqa yerlərdən aşıqlar toplaşar və hər gecə mərəkə olardı: mübahisə, çalıb-oxumaq və bağlamanın cavabını axtarmaq.

Bu deyişmələrdə kənar adamlar da iştirak edərdilər və şübhəsiz üzüağ da çıxardılar.

Qəhvəxana camaatla həmişə dolu olardı və aşıqları coşdurmaq üçün onlara bəxşişlərdən başqa çoxlu pul da səpələyərdilər və bu pulları orijinal şəkildə şalın üstünə yapışdırardılar. Belə ki, bir az keçəndən sonra (hərdən bu deyişmə bir həftə davam edərdi) şalın üstü kağız pullarla dolu olardı və çox vaxt toplanan pul iyirmi-otuz tüməndən artıq olardı.

Bu pul bağlamanı açanın olmalı idi. Pul ilə birlikdə şal da qalib gələn aşığa məxsus olurdu. Divardan şalı alıb qalibin qoltuğuna soxar, ya da hörmət əlaməti olaraq boynundan asardılar. Əgər bağlamanı heç kim aça bilməsəydi, onda şal da, toplanan pul da bağlamanın müəllifinə qalardı.

Bu bağlama heç də asan deyildi. Məsələn, aşıqlar bağlamanı sinədən şeir kimi söyləyər, o biri aşıqdan soruşardı:

"De görüm, eşidibsənmi, ay aşıq,
O nədir ki, insanı həm yaşadır, həm də öldürür".

Bu sözlər uyğun rədif üzərində qurulur və qalib gələn onu eyni rədifli şeirlə açmalıdır.

Bağlamanın sirrini etibarlı bir şəxs və ya qəhvəçi bilməlidir. Elə ki, aşıq şeirlə bağlamanı açır, qəhvəçi həmin vaxt həmişə əlində tutduğu tənəkə parçasına dəmir maşa ilə vuraraq, "Dayanın, tapıldı!", – deyə qışqırır.

Bu zaman qalib camaatın iştirakı ilə bağlamanın sahibindən də qafiyələr, hecalar ilə onu təsdiq etməyi tələb edir. Qalibi qəhvəçi şalla və istərsə də pul ilə mükafatlandırır".

Aşıqların bu cür deyişməsi əvvəllər Borçalıda, Qarayazıda və Qaraçöpdə də olurdu. Hazırda da aşıqlar arasında bu cür deyişmələr Türkiyədə mövcuddur. Ünlü türk aşıqlarının xatirəsinə həsr olunmuş kültür və sənət şölənləri hər il keçirilir. Bu tədbirdə münsiflər heyəti tərəfindən aşıq poeziyasının müxtəlif növləri üzrə, o cümlədən gəraylı, qoşma, müxəmməs, divani, təcnis və sair üzrə bir rədif elan olunur, siyahı üzrə ən azı üç aşığın adı çəkilir. Onlar sıra ilə həmin rədif üzrə bir bənd söyləyərək, növbəni digərinə verirlər. Belə ki, aşığın biri söyləyənə kimi, digərləri rədif üzrə fövqəladə şəkildə düşünür, üç bəndlik şeirin axırıncı bəndində aşıq öz adı ilə tapşımasını söyləyir. Beləliklə, hər bir aşıq sinədən üç bəndlik şeir söyləməli olur.

Bir qayda olaraq deyişmənin iştirakçıları rəqibinin istifadə etdiyi rədifdən istifadə etməməlidir. Rədif tapa bilməyən məğlub, uğurlu rədiflə şeirini söyləyən aşıq isə qalib hesab olunur. Nəhayət, axırda bir bağlama söylənilir. Tədbirdə iştirak edən aşıqlar o bağlamanı açmağa çalışırlar. Bağlamanı düzgün açan qalib hesab olunur və mükafatlandırılır.

**2000-ci il oktyabrın 23-25-də Türkiyənin Qars şəhərində Uluslararası Aşıq Şenlik Kültür və Sənət Şölənində iştirak edərkən, belə deyişmələrin şəxsən şahidi olmuşam.**

Mirzə MƏMMƏDOĞLU

(ardı var)

## GÜRCÜSTANIN DÖVLƏT NAZİRİ XARİCDƏ İŞLƏYƏN VƏTƏNDAŞLARDAN ÜZR İSTƏYİB



Gürcüstanın Diaspor məsələləri üzrə Dövlət naziri Qela Dumbadze iş axtarmaq üçün xaricə getmiş vətəndaşlardan açıq şəkildə üzr istəyib.

Qela Dumbadzenin mayın 5-də "Kviris palitra" qəzetində müsahibəsinin dərc olunmasından sonra qalmaqal baş verib. Dövlət naziri həmvətənlərin xaricdə xidmət personalı kimi işləməkdən utanmadıqlarını, Gürcüstana qayıdıb belə işi burada da tapa biləcəklərini bildirib.

Bu müsahibə xaricə qazanc dalınca getmiş yüzlərlə adamın narazılığına səbəb olub. Onlar sosial şəbəkələrdə nazirin sözləri ilə təhqir olunduqlarını bildirərək, Dumbadzenin istefasını tələb ediblər. Nəticədə nazir üzr istəmək qərarına gəlmiş və qəzetin onun sözlərini təhrif etdiyini də bildirməyi unutmamışdır.

Dumbadzenin bəyanatında deyilir: "Səmimi şəkildə təəssüf edirəm və mənim sözlərimin yaraladığı və təhqir etdiy insanlardan üzr istəyirəm. Bu adamlar, xüsusilə qadınlar Gürcüstanda külli miqdarda ailənin saxlanması üçün böyük qeyrət sərf edirlər. Məhz onlar öz çiyinlərində ən ağır illərin yükünü çəkiblər və xüsusi hörmətə layiqdirlər", – dövlət nazirinin bəyanatında vurğulanır.

## GÜRCÜSTAN SAKİNLƏRİ HARA MÜHACİRƏT EDİRLƏR?

Əhalinin sonuncu siyahıya alınması göstərir ki, Gürcüstandan mühacirət edənlərin sayı 88,5 min nəfər təşkil edib.

Söhbət o Gürcüstan sakinlərindən gedir ki, onlar 1 yanvar 2002-ci il tarixindən ölkədən həmişəlik və ya müvəqqəti yaşamaq üçün getmiş və 12 aydan artıq geri qayıtmayıblar.

"Sakstat" Milli Statistika Xidmətinin məlumatına əsasən, gürcü mühacirlərinin yaşadıqları ölkələrin ilk onluğu bunlardır: Rusiya – 21,7%; Yunanıstan – 15,9%; Türkiyə – 11,2%; İtaliya – 10,9%; Almaniya – 7,1%; ABŞ – 5,7%; İspaniya – 4,1%; Fransa – 3,7%; Ukrayna – 3,7%; Azərbaycan – 2%.

Əhalinin ümumi siyahıya alınması sübut edir ki, 13 il ərzində Gürcüstanın əhalisi 15% azalaraq, 3,7 milyon təşkil edib. Siyahıya alma 2014-cü ilin 5-19 noyabr tarixində keçirilib.

Tədqiqatın gedişində ailə tərkibi, ailələrin demoqrafik, sosial və iqtisadi vəziyyəti, əhalinin etnik və dini mənsubiyyəti, məşğulluğu, eləcə də sağlamlıq vəziyyəti dəqiqləşdirilib.

## MÜSƏLMAN-MƏSHƏTİLƏRİN REPATRİASİYASI PROSESİ MÜZAKİRƏ OLUNUB

Cenevrədə Gürcüstan nümayəndə heyəti BMT Komitsinə BMT-nin eyniadlı Konvensiyasının yerinə yetirilməsinin gedişi haqqında irqi ayrı-seçkiliyin ləğv edilməsinə dair məruzə təqdim edib. Gürcüstan XİN-nin müavini Xatuna Totladze milli azlıqların hüquqlarının müdafiəsi və genişləndirilməsi, onların mədəniyyətlərinin və özünəməxsusluqlarının qorunmasına dair hökumətin səyləri barədə danışıb.

Totladze Komitə üzvlərinin diqqətini Abxaziyada və Sxinvali regionundakı vəziyyətə yönəldib. O, qeyd edib ki, bu ərazilər "indiyədək Rusiyanın hərbi işğalı altındadır".Komitə üzvləri Gürcüstanın ölkədə ayrı-seçkiliyin ləğv olunması üzrə səylərini alqışlamışlar. Bununla belə onlar bir çox suallar, o cümlədən də qaraçıların və müsəlman-məshətilərin vəziyyəti ilə bağlı suallar vermişlər.

Komitə üzvləri sovet dövründə 120 mindən artıq müsəlman-məshətinin məcburi şəkilkdə sürgün olunmasını xatırlatmışlar. Sovet İttifaqının dağılmasından sonra 5840 məshəti tarixi vətənlərinə qaytarılmaları barədə xahişlə müraciət edib. Onlardan yalnız 1300 -ü Gürcüstana qəbul olunub. Ekspertlər güman edirlər ki, bu, sürgün olunmuşların çox cüzi bir hissəsidir. Onların qayıtarılması haqqında müraciətə baxılması prosesi uzadılır. Bununla belə müsəlman-məshətilər Gürcüstan vətəndaşlığı almaq üçün digər dövlətin vətəndaşlığından imtina etməlidirlər. Lakin belə tələb Gürcüstanın ikili vətəndaşlığı olan digər vətəndaşları üçün məcburi deyil. Ekspertlər Gürcüstan hakimiyyətini ikili standartlardan imtina etməyə çağırıblar.

Gürcüstanın məruzəsinin müzakirəsi zamanı Komitə üzvləri siyasi diskursda və KİV-də irqçiliyin təzahürü məsələsinə də diqqət yetiriblər. Onlar etnik azlıqların münasibətlərində təzahür edən düşmənçiliyin qarşısının alınmasında hakimiyyətin hansı tədbirlər gördüyünü soruşublar.

Komitə 18 ekspertdən ibarətdir və irqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Beynəlxalq Konvensiyanın yerinə yetirilməsini müşahidə etmək üçün yaradılıb. Konvensiya 1965-ci ildə qəbul edilib və 1969-cu ildə qüvvəyə minib. Onun üzvü olan 177 dövlət vaxtaşırı Komitə qarşısında hesabat verir.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 may 2016-cı il
№009 (23)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## BİRİNCİLƏRİN ƏLİFBA BAYRAMINDAN QEYDLƏR



Mayın 13-də Qardabani rayonundakı Kosalı ictimai məktəbinin akt zalı təzə-tər gül-çiçəklərlə, rəngbərəng kürələrlə bayramsayağı bəzədilmişdi. Məktəbin birinci sinif şagirdləri özlərinin ilk böyük ictimai tədbirlərini – Əlifba bayramlarını keçirirdilər. Bu, səslərin-hərflərin sözə-fikrə çevrilməsi, əlifbanın möcüzələr yarada bilməsi bayramı idi. Bu, böyüklü-kiçikli hamının üz-gözündə sevincin, fərəhin, uğurun, qürurun çiçəklər açdığı bir günün, həyat yollarında ilk addımlarını atan, özünütəsdiqə can atan, həyatlarının ilk böyük həyacanlarından birini yaşayan birincilərin sevinc-qürur yaşadıqları, yaşatdıqları bir günün bayram idi.

Birincilərin Əlifba bayramlarında onların seviclərini, həyacanlarını bölüşmək üçün mərasimə toplaşan valideynlər, məktəbin müəllimləri, yuxarı sinif şagirləri bu günün daha yaddaqalan olmasından yana bacardıqlarını əsirgəmirdilər. Elə buradaca birincilərin sinif müəllimi Zemfira Allahverdiyevanın müstəsna zəhmətini, hər bir şagirdə xüsusi qayğı ilə yanaşmasını, pedaqoji bacarıq və səriştəsini qeyd etmədən keçmək tərəfimizdən haqsızlıq olardı.

Nəhayət, səhnənin pərdələri açıldı və ağ köynəkdə sülh göyərçinləri kimi görünən birincilərin səfi qarşımıza çıxdı. Mərasimin aparıcıları V sinif şagirdləri Sərmin və Vüsalın qısa təqdimatı ilə Əlifba bayramının açılışı oldu. Daha sonra birincilərin ifasında Gürcüstanın və Azərbaycanın Dövlət himni mərasim iştirakçılarına duyğulu anlar yaşatdı.

Birinciləri, eləcə də onların valideynlərini və müəllimlərini bu gözəl gün münasibətilə təbrik edən məktəbin direktoru Mahmud Mehdiyev onlara şəxsi həyatlarında uğurlar arzulayaraq, hər bir şagirdin əldə edəcəkləri biliklər vasitəsilə gələcəkdə Kosalı məktəbinin mütərəqqi ənənələrini yaşadacağına əminliyini ifadə etdi. Tədbirdə birinciləri təbrik edən valideynlər də onların ünvanına xoş sözlər söylədilər.

Sonra səhnə yenidən kiçikyaşlı məktəblilərin ixtiyarına verildi. Onlar bir-birindən maraqlı mahnı, rəqs, şeir və səhnəciklərdən ibarət konsert proqramı ilə tamaşaçılar qarşısında çıxışlarına başladılar. Bu proqramda sinifdə oxuyan hər bir şagirdin fəal şəkildə iştirakı sezilirdi. Ülkər, Zaur, Qızılgül, Ruhi, Alsu, Abdullah, Fəridə, Elcan, Rail, Röyal, Kamilə, Sarı, Fəridə, Haley, Nazlı, Simar, Nərmin, Tunar, Mənsurə, Nurxan, Havaxanım, Polad, Fidan, Nail, Pınar, Sunay və Vüsal ifa etdikləri nömrələrlə tamaşaçılarına xoş anlar yaşatdıqları kimi, özlərini ifadə etmək bacarıqlarını da sərgiləyirdilər. Gah aktyor, gah rəqqas, gah da müğənni kimi rol alan birincilər öz bacarıq və qabiliyyətlərini nümayiş etdirməkdən zövq alıb, tamaşaçıları da əyləndirməyi bacarıdılar. “Hərflərin bəhsi”, “Rəqəmlərin söhbəti”, “Tık-tık xanım”, “Turp nağılı” kimi səhnəcikləri, gürcü və Azərbaycan rəqslərindən ibarət rəqsləri mərasimə qatılanlar rəğbətlə qarşıladılar.



Birincilərin məhz bu bayram münasibətilə hazırlanmış məzun geyimində səhnədə görünmələri alqışlarla qarşılandı. İnanırıq ki, kiçikyaşlı uşaqların bu bayram sevinci 12-ci sinifdən məzun olanacan onların yol yoldaşı olacaq, gələcək uğurlarında onların yollarına işıq salan mayaka çevriləcək.

Afayət AFİQ

Fotolar Zahid Qədirovundur

## OLİMPİYA OYUNLARI TARİXNDƏ ANA VƏ OĞUL İLK DƏFƏ BİRLİKDƏ İŞTİRAK EDƏCƏK



Pnevmatik tapança atıcıları Nino Salukvadze və Sotne Maçavariani Braziliyada 2016-cı il Olimpiya oyunlarında iştirak edəcəklər. Bu, Olimpiya oyunları tarixinə ana və oğulun ilk dueti kimi düşəcək. Bu barədə “Olimpstats” portalı məlumat yayıb.

18 yaşlı Sotne Maçavarianidən ötrü Braziliyadakı oyunlar karyerasında ilk olsa da, onun 47 yaşlı anası Nino Salukvadze özünün 8-ci Olimpiya oyunlarında iştirak edəcək. N. Salukvadzenin aktivində Olimpiya oyunlarının bir qızıl, bir gümüş və bir bürünc medalı var.

Xatırladaq ki, Olimpiya oyunları cari ilin 5-21 avqust tarixində Rio-de-Janeyro şəhərində keçiriləcək.

## SENEQALLI QADIN FİFA-NIN BAŞ KATİBİ OLDU



Beynəlxalq futbol federasiyasının (FİFA) prezidenti Canni İnfantino təşkilatın konqresindəki çıxışında, FİFA-nın baş katibi vəzifəsinə Seneqalın nümayəndəsi Fatma Samuranı təklif edib.

“Biz FİFA-nı iki hissəyə – futbol və inzibati hissələrə bölmək istəyirik. Futbol hissəsi istisnasız olaraq idman növü kimi futbolun inkişafı məsələləri ilə, inzibati bölmə isə maliyyə məsələləri ilə məşğul olacaq”, – İnfantino FİFA-da keçiriləcək islahatlardan danışıb.

“FİFA-nın konqresinə həm də yeni baş katibi – seneqallı Fatma Samuranı təqdim etmək istəyirəm” – İnfantino əlavə edib.

Beləliklə, Samura FİFA-nın ilk qadın baş katibi olub.

Bundan əvvəl FİFA-nın baş katibi olmuş Jerom Valke korrupsiya ittihamı ilə 12 il müddətinə futboldan uzaqlaşdırılıb.

## FORBES DÜNYANIN ƏN BAHALI BRENDLƏRİNİ MÜƏYYƏNLƏŞDİRDİ

“Forbes” jurnalı dünyanın ən bahalı brendlərinin reytinqini hazırlayıb.

ABŞ-ın “Apple” şirkəti dünyanın ən bahalı brendləri siyahısında növbəti dəfə liderliyini saxlayıb. Bu brendin dəyəri 154,1 milyard dollardır.

Şirkətin gəlirlərinin aşağı düşməsinə baxmayaraq “Apple” yüksək texnologiya sənayesində liderliyini qoruya bilib.

Siyahının ikinci pilləsində “Google” qərarlaşıb. “Google” brendi 82,5 milyard dollar məbləğində qiymətləndirilib.

“Microsoft” şirkəti 75, 2 milyard dollarla siyahının üçüncüsü ola bilib. “Coca-Cola” isə 58,5 milyard dollarla dördüncü yerlə kifayətlənib. “Facebook” isə 52,6 milyard dollarla yalnız beşinci yerlə kifayətlənməli olub.

İlk onluqda həmçinin Toyota, IBM, Disney, McDonald’s və General Electric şirkətləri özünə yer edib.

## NYU-CERSİ SAKİNİ LOTEREYADA 430 MİLYON DOLLAR UDDU

Reuters agentliyinin məlumatına görə, Amerikanın Nyu-Cersi ştatının sakini Powerball lotereya oyununda 429,6 milyon dollarlıq cekpotu udub.

Qalib hələ uduşu götürmək üçün müraciət etməyib. Bu, ABŞ tarixində böyüklüyünə görə doqquzunucu uduşdur. Rekord məbləğdə cekpot 2016-cı ilin yanvarında udulub və 1,6 milyard dollarlıq uduş üç nəfər arasında bölünüb.

Powerballın uduş kombinasiyasını tapmaq şansı birin 292 milyonu nisbətindədir. ABŞ-ın istənilən vətəndaşının ölkənin növbəti prezidenti olmaq şansı Powerball lotereyasını udmaq şansından 25 dəfə çoxdur.

## FRANSADA SİQARET ÇƏKMƏKDƏN İMTİNA EDƏN HAMİLƏ QADINLAR PUL ALACAQLAR

Fransız hökuməti xəstəxanalarda eksperiment həyata keçirir və pulun köməyi ilə hamilə qadınları siqaret çəkmək kimi zərərli vərdişdən uzaqlaşdırmağa çalışır. Bu barədə ixtisaslaşdırılmış Madame Figaro nəşri məlumat yayıb.

“Paris şəhər xəstəxana idarəsinin və Milli onkologiya institutunun təşəbbüsü ilə Fransanın 17 xəstəxanasında eksperiment həyata keçirilir. Eksperimentdə iştirak etmək üçün sutkada ən azı 5 siqaret çəkən 4,5 aylıq hamilə olan qadınlar dəvət olunub”, – nəşr yazır.

KİV-in məlumatına görə, hər bir qadın tütünə bağlılıq problemlərilə tanış olan həkim mütəxəssisin nəzarəti altında olacaq. Qadının mütəxəssis yanına hər dəfəki gəlişi ona 20 avro qazandıracaq. Qadın siqareti atdığı təqdirdə, ödənilən məbləğ 300 avro ola bilər. Qadının orqanizimində nikotinin səviyyəsi analizlər nəticəsində müəyyən ediləcək.

Madame Figaro sonda bunları qeyd edib: “Fransa səhiyyə nazirliyinin rəsmi məlumatına əsasən, hər beş fransız qadından biri hamiləlik dövründə siqaret çəkir. Fransa hamilə qadınları tütündən istifadə etməməyə inandırmaq istəyən ilk ölkə deyil. İsveçrə hökuməti 2011-ci ildən siqaret çəkməkdən imtina edən hər bir hamilə qadına 1500 frank ödəyir. 2015-ci ildə Şotlandiyanın Sterlinq və Qlazqo universitetləri 612 hamilə qadının iştirakı ilə eksperiment həyata keçirib. Hər beş nəfərdən biri pul qazana bilib. Lakin nəticə etibarı ilə cəmi 9% siqaret çəkməyi tərgidib”.

## BAŞSAĞLIĞI

Kosalı ictimai məktəbinin pedaqoji kollektivi məktəbin keçmiş riyyaziyyat müəllimi

**Elbəyi Abdulla oğlu Həsənovun**

vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına və doğmalarına dərin hüzünlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.